DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (360) / OKTYABR 2021-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN DİYANƏT İŞLƏRİ İDARƏSİNİN SƏDRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşı qəbul edib.

Prezident İlham Əliyev Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə təbriklərini çatdırdı, türk xalqına xoşbəxtlik və rifah arzuladı.

Söhbət zamanı Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanın ölkəmizə bu yaxınlardakı səfəri məmnunluqla xatırlandı, bu səfərin Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibəbələtlərinin növbəti nümunəsi olduğu və əlaqələrimizi daha da möhkəmləndirdiyi vurğulandı.

Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşın işğaldan azad olunmuş torpaqlarımıza səfər etməsinin önəminə toxunularaq, onun işğal dövründə bütün tarixi-dini abidələrin ermənilər tərəfindən məhv edildiyinin şahidi olduğu qeyd edildi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı.

## KOMİTƏ SƏDRİ: "AZƏRBAYCANDA HEÇ KİM, HEÇ BİR QRUPLAŞMA DİN ADI ALTINDA GİZLƏNƏRƏK, DİN PƏRDƏSİ ALTINDA NƏSƏ EDƏ BİLMƏYƏCƏK"



Səh. 3

## DİN VƏ ƏDƏBİYYAT



Səh. 6

## "DİNİ RADİKALİZM VƏ EKSTREMİZM, DİNİ AYRI-SEÇKİLİK"



Səh. 7

## "MOLLANIN, RUHANİNİN, DİN XADİMİNİN PSİXİ SAĞLAMLIQLA BAĞLI ANLAYIŞI OLMALIDIR"



Səh. 11

# PREZİDENT İLHAM ƏLİYEV: "ERMƏNİLƏRDƏN FƏRQLİ OLARAQ BİZ BÜTÜN DİNİ ABİDƏLƏRƏ HÖRMƏTLƏ YANAŞIRIQ"

***Dövlət başçısı Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində və rus-pravoslav kilsəsində olub***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində olub.

Dövlətimizin başçısı dedi: Bu da qədim alban kilsəsidir. Görün, ermənilər bu kilsəni nə günə salıblar. Sonra da deyəcəklər ki, guya bu, erməni kilsəsidir. Erməni kilsəsi olsaydı, bu günə salardılar?! Tarixi abidə kimi qorunacaq. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur. Bütün dini konfessiyaların abidələri bundan sonra da qorunacaqdır. Biz bu qədim alban kilsəsini də bərpa edəcəyik. Ermənilər 30 il ərzində bu bölgəni ancaq dağıdıblar.

İcra hakimiyyətinin başçısı Müstəqim Məmmədov: Buranı özləri suvayıblar ki, alban-udi kilsəsi olduğu bilinməsin. Yəni, saxtakarlıq ediblər.

Prezident İlham Əliyev: Ancaq saxtakarlıq. Bütün dünya da görsün ki, ermənilər alban kilsəsini nə günə qoyublar.

Daha sonra kənddəki rus-pravoslav kilsəsində olan Prezident İlham Əliyev dedi: Bu da Talış kəndində yerləşən rus-pravoslav kilsəsidir. Bunu da ermənilər dağıdıblar. Görün, nə gündədir, daşları da söküblər, divarları da söküblər. İndiki vəziyyəti bax, budur. Biz bu kilsəni də bərpa edəcəyik, təmir edəcəyik. Ermənilərdən fərqli olaraq biz bütün dini abidələrə hörmətlə yanaşırıq.

Bu binalar isə onların hərbi hissəsi olub.

# PREZİDENT İLHAM ƏLİYEV: "BİZ HƏM TARİXİ ƏDALƏTİ BƏRPA EDİRİK, HƏM BİZİM DİNİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ SƏDAQƏT GÖSTƏRİRİK"



"Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir". Bu fikirləri Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib. Dövlət başçısı deyib ki, çünki sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər idi: "Onlar, əlbəttə ki, burada məscidin inşasına imkan verməzdilər və bilirik ki, bütövlükdə sovet dövründə - ateizm dövründə məscid tikmək mümkün deyildi".

Prezident İlham Əliyev onu da vurğulayıb ki, biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk. "Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq", - deyə dövlət başçısı əlavə edib.

# PREZİDENT İLHAM ƏLİYEV: "ZƏNGİLAN MƏSCİDİ BƏRPA EDİLİR, ORADA LÖVHƏLƏR DƏ QOYULUB"

"İşğala qədər Zəngilan rayonunun əhalisi təqribən 30 mindən bir qədər çox idi. İndi 45 minə çatıb və əminəm ki, zəngilanlıların hamısı gəlib burada, belə bir gözəl yerdə, doğma vətəndə yerləşəcək". Bu fikirləri Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Dövlət başçısı vurğulayıb ki, Zəngilan ərazisindəki məscid bərpa olunur: "Biz indi məscidi də bərpa edirik. Heydər Əliyev Fondu məscidin bərpası ilə məşğuldur, artıq orada lövhələr də qoyulub. Biz də burada olanda simvolik olaraq təməl daşını da qoyduq. Onu da bərpa edəcəyik. Bəli, qədimdən qalan o hissəni bərpa edəcəyik. Mənə dedilər ki, sovet vaxtında ora klub idi, ya da anbar".



# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ RUSİYA FEDERASİYASI MÜSƏLMANLARININ RUHANİ İDARƏSİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞÜB

Oktyabrın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Rusiya Federasiyası Müsəlmanlarının Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Dəmir Muxetdinov ilə görüşüb.

Qonağı salamlayan DQİDK sədri ölkəmizdəki dini durum, dinlərarası harmoniya, tolerant ənənələrə verilən dəyər, adət halını almış vəhdət namazları, eyni zamanda Dövlət Komitəsinin fəaliyyəti barədə danışıb.

Daha sonra Dövlət Komitəsinin sədri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində rəşadətli Ordumuzun böyük qələbə əldə etdiyini bildirib. İşğaldan azad olunan torpaqlarda Ermənistanın beynəlxalq konvensiyalarda başəri cinayət kimi qiymətləndirilən əməllər törətməsi - həm müsəlman, həm də xristian dini abidələrini dağıtması, saxtalaşdırması, o cümlədən mədəni irsi yerlə yeksan etməsi haqqında məlumat verən Mübariz Qurbanlı artıq dövlət tərəfindən kəndlərin, şəhərlərin, eləcə də dini abidələrin, məscidlərin tikintisi və bərpası üzrə layihələrin icra olunduğunu vurğulayıb.

Söhbət zamanı Dövlət Komitəsinin sədri, eyni zamanda dini radikalizm və ekstremizm sahəsində dövlət tərəfindən aparılan qabaqlayıcı tədbirlər və mübarizə üsulları çərçivəsində həyata keçirilən kompleks maarifləndirmə layihələrinə toxunub. Həmçinin ölkəmizdə



yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə müasir təhsil standartları və dünya təcrübəsi əsasında təsis edilən yeni ali dünyəvi təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətinə diqqət çəkib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Dəmir Muxetdinov tarixi zəfər qazanan Azərbaycan xalqını möhtəşəm qələbə münasibətilə təbrik edib. İslam əleyhinə hörmətsizliklərə son qoyan, Azərbaycanın qanuni və tarixi torpaqlarının azad edilməsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsi dövründə bütün Rusiya müsəlmanlarının xalqımız üçün dualar etdiyini vurğulayıb. Əlavə edib ki, Azərbaycan multikultural dövlətdir, bütün dinlərə, o cümlədən Xristianlığa hörmətlə yanaşır, qayğı göstərir.

Görüşdə Dövlət Komitəsinin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu və Rusiyanın müvafiq ali təhsil ocaqları arasında əlaqələrin qurulması, dinin siyasiləşdirilməsinə qarşı mübarizə sahəsində fikir və təcrübə mübadiləsinin aparılması barədə müzakirələr aparılıb.

Yekunda qonağa DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

# KOMİTƏ SƏDRİ: "AZƏRBAYCANDA HEÇ KİM, HEÇ BİR QRUPLAŞMA DİN ADI ALTINDA GİZLƏNƏRƏK, DİN PƏRDƏSİ ALTINDA NƏSƏ EDƏ BİLMƏYƏCƏK"

Oktyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Yeni TV-nin canlı yayımının qonağı olub.

Komitə sədri əvvəlcə güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider Prezident İlham Əliyevin 18 illik fəaliyyət dövrünə nəzər salıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı böyük işlər, onun siyasəti, Heydər Əliyev yolu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə ermənilərin bütün tarixi-dini abidələri, o cümlədən orada olan məscidləri məhv etməsi ilə bağlı sualı cavablandıran Mübariz Qurbanlı bildirib ki, yalnız Şuşada bir məscid qeyri-qanuni, İranın dəstəyi ilə təmir




edilib, zahiri görkəmi dəyişdirilib. Onu Azərbaycan xalqına xas olan tarixi bir məscid kimi deyil, fars məscidi kimi göstərməyə çalışıblar. Komitə sədri vurğulayıb ki, həmin dövrdə İranın bu cür məsələlərdə iştirakı mənfi mənada hansı rolu oynadığını bir daha sübut edir. O, həmçinin Prezident İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında bunları faktlarla göstərdiyini bildirib.

Canlı yayım zamanı radikal və ekstremist qrupların hər hansı dini məzhəb adı altında fəaliyyətlərinə də toxunan DQİDK sədri belə qrupların Azərbaycanda hər hansı bir ictimai asayişi pozmaq və ya hər hansı bir hərəkət etmək imkanlarının olmadığını bildirib. Mübariz Qurbanlı söyləyib ki, bu, qeyri-mümkündür: "Kimsə hesab edirsə, din adı altında Azərbaycanın ictimai-siyasi quruluşuna və ya ictimai asayişini, stabilliyini, sabitliyini pozmaq üçün o qrupların adı ilə nəsə edə bilər, böyük yanlışlığa yol verir. Ona görə ki, Azərbaycanda xalq monolitdir, güclüdür, dövlət də güclüdür, xüsusi xidmət orqanlarımız da güclüdür. Azərbaycanda bu istiqamətdə ideoloji cəhətdən də işlər kifayət qədər aparılır. Medianın da burada rolunu xüsusi qeyd etmək istəyirəm. Əminəm ki, Azərbaycanda heç kim, heç bir qruplaşma din adı altında gizlənərək, din pərdəsi altında nəsə edə bilməyəcək. İctimai, siyasi, iqtisadi sabitlikdir, xalq və hakimiyyət arasında çox möhkəm bağlar, vəhdət var və cənab Prezidentin simasında Azərbaycanı daha böyük zirvələrə aparacaq Lider var".

# ABŞ-IN BİR QRUP DİNİ İCMA RƏHBƏRİ DÖVLƏT KOMİTƏSİNDƏ OLUB

Oktyabrın 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ABŞ-ın bir qrup İslam, xristian və yəhudi dini icma rəhbərləri ilə görüşüb.

Qonaqları salamlayan Dövlət Komitəsinin sədri ABŞ-a səfərləri çərçivəsində keçirilmiş görüşləri xatırladaraq qarşılıqlı əlaqələrin əhəmiyyətindən danışıb. Bugünkü qonaq heyətinin tərkibində xristian, İslam və yəhudi dininə mənsub tanınmış şəxslərin olmasını qeyd edən Komitə sədri bunun Azərbaycandakı dinlərarası harmoniyaya bənzədiyini bildirib. M.Qurbanlı qeyd edib ki, ölkəmizdə dini konfessiyalar arasındakı münasibətlərin kökündə bir - birinin dini inancı və mənəvi dəyərlərinə dərin hörmət dayanır və dövlətin dini konfessiyalara münasibətində bərabərlik prinsipi mütləq mənada qorunur. Bu prinsipi Azərbaycandakı dini icmaların fəaliyyətinin dəstəklənməsi istiqamətində ardıcıl tədbirlərin görülməsində aydın şəkildə müşahidə etmək olar.



Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış şanlı qələbəmizə diqqət çəkən DQİDK sədri işğaldan azad edilmiş ərazilərimizdə təcavüzkar Ermənistan dövlətinin vandal əməlləri, o cümlədən xalqımıza məxsus çoxəsrlik qədim tarixi-dini abidələrin dağıdılması və Qafqaz Albaniyasına məxsus kilsələrin saxtalaşdırılması faktlarını xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən dini icma rəhbərləri səfərləri müddətində canlı şahidi olduqları tolerantlıq və dini müxtəliflik mühitini təqdir etdiklərini qeyd ediblər. Azərbaycanda fəaliyyət göstərən müxtəlif dini ibadətgahları ziyarət etdiklərini, o cümlədən Ağdam, Şuşa, Gəncə şəhərlərində olduqlarını söyləyən qonaqlar müxtəliflik, eyni zamanda inklüzivliyin dövlət və xalqımızın prioritetləri sırasında öncəlik təşkil etdiyini qeyd ediblər. Ölkəmizdə qeyri-islam dini icmalara göstərilən diqqət və qayğını ən yaxşı tolerantlıq nümunəsi kimi dəyərləndirən icma rəhbərləri Heydər məscidində qılınan vəhdət namazını heyranlıqla izlədiklərini, Azərbaycanın dinlərarası harmoniya baxımından gözəl bir örnək olmağa davam etdiyini deyiblər.

Sonda qonaqlara DQİDK-nın ingilis dilində nəşr etdirdiyi kitablar hədiyyə olunub.

# MÜBARİZ QURBANLI: "AZƏRBAYCANIN YENİDƏN DÖVLƏT MÜSTƏQİLLİYİNİ ƏLDƏ ETMƏSİ XALQIMIZIN HƏYATINDA MÜHÜM TARİXİ HADİSƏ OLDU"

*Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Mübariz Qurbanlının yap.org.az saytına müsahibəsi*

**- Mübariz müəllim, 44 günlük Vətən müharibəsinin başlamasından bir il ötür. Bu müharibədə Azərbaycanın möhtəşəm qələbə qazanması ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.**

- Vətən müharibəsində qələbənin əldə edilməsinin əsasında ciddi siyasi-iqtisadi, hərbi və mənəvi-psixoloji səbəblər dayanır ki, onların da formalaşması və həlledici şərtlər kimi çıxış etməsi müxtəlif mərhələlərdən keçmişdir. Bildiyiniz kimi, Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi xalqımızın həyatında mühüm tarixi hadisə oldu. Həmin dövrdə xalqımızın milli maraqlarını ifadə edən dövlət siyasətinin aparılması vacib idi. Lakin keçmiş iqtidarların dövləti idarəetmə səriştəsinin olmaması nəticəsində Azərbaycan ağır sosial-iqtisadi və siyasi böhranla üzləşdi, cəmiyyətdə hərc-mərcliyin baş alıb getməsi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaratdı. Ziddiyyətli xarakter daşıyan xarici siyasətin nəticəsində Azərbaycan beynəlxalq aləmdə təkləndi, dünya birliyində onun haqqında qeyri-ciddi dövlət obrazı formalaşdı.

Azərbaycanı üzləşdiyi böhrandan Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xilas etdi. Heydər Əliyev ictimai-siyasi sabitliyin yaradılması və sosial-iqtisadi böhranın aradan qaldırılması üçün müdrik siyasət həyata keçirməyə başladı. Demokratik siyasi sistem və bazar iqtisadiyyatı münasibətləri inkişaf etdi. Cəmiyyətin bütün sahələrinin inkişafını nəzərdə tutan məqsədyönlü siyasətin nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyi təmin edildi, onun dünya birliyində mövqeyi gücləndi. Müstəqil dövlət quruculuğunun tərkib hissələrindən biri kimi vahid komandanlığa əsaslanan, ölkənin təhlükəsizliyini təmin edə biləcək Silahlı Qüvvələr yaradıldı. Heydər Əliyev Azərbaycanın xarici siyasətini beynəlxalq hüquqi normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi kimi prinsiplər əsasında qurdu. Xarici siyasət aparılarkən Azərbaycanın geosiyasi vəziyyəti, onun dünya ölkələri ilə ayrı-ayrılıqda və çoxtərəfli formatda münasibətlərinin xüsusiyyətləri nəzərə alındı. Regional və beynəlxalq təşkilatlarla əlaqələr yaradıldı və xalqımızın mənafeyi naminə onların imkanlarından istifadə olunmağa başlanıldı. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və digər nüfuzlu qurumlarla Azərbaycanın əlaqələri möhkəmləndi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq Heydər Əliyevin apardığı xarici siyasətin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ümummilli Lider BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etməsinə nail olmuş, münaqişə ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər təşkilatların tribunalarından səsləndirmiş, beynəlxalq birliyi problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırmışdır. Bütün bunlara baxmayaraq, beynəlxalq təşkilatların qərarları sadəcə olaraq adalətin öz əksini tapdığı, lakin icra edilməyən sənəd parçası olaraq qalırdı. Lakin səbir, iradə və qətiyyət bu münaqişənin həllində əhəmiyyətli rol oynadı. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu şanlı qələbə əldə etdi.

**- Vətən müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən əsas səbəblər içərisində Prezident İlham Əliyevin liderlik və hərbi sərkərdəlik keyfiyyətlərini, onların mahiyyətini necə xarakterizə edərdiniz?**

- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış şanlı qələbə "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut etdi. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf və modernləşmə yolu ilə irəliləyən, dünya siyasətində öz yeri və rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar. Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən Lider kimi xalqımızın böyük rəğbətini qazanıb.

Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Vaxtilə müharibə şəraitində yaşayan ölkəmizin bütün sahələrindəki davamlı inkişaf Prezident İlham Əliyevin qarşısına qoyduğu məqsədləri uğurla yerinə yetirdiyini göstərir. Vətən müharibəsində xalqımız Prezident İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin bir daha şahidi oldu.

**- Müharibədə qələbəni təmin edən sosial-iqtisadi amillərin rolu, xüsusilə ordu quruculuğu sahəsində görülmüş işlərin əhəmiyyəti barədə fikirləriniz...**

- Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər Vətən müharibəsində qələbənin qazanılmasında mühüm rol oynamışdır. Azərbaycan müharibədə sosial-iqtisadi baxımdan inkişaf etmiş güclü dövlət kimi iştirak etdi. Müharibəyəqədərki dövrdə və hazırda ölkəmizin maddi-mənəvi resursları səmərəli şəkildə dövlətin inkişaf strategiyasının həyata keçirilməsinə cəlb olunmuşdur. Azərbaycan böyük enerjinəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri kimi regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində vacib rol oynayır. Prezident İlham Əliyev ölkəmizin enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla nəqli istiqamətində praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu vasitəsilə beynəlxalq birliyin diqqətini Azərbaycana cəlb edir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirərək, Azərbaycanın karbohidrogen ehtiyatlarından əldə olunan gəlirləri ölkəmizin inkişafına yönəldir. Azərbaycanla dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələr möhkəmlənir. Prezident İlham Əliyevə dərin inam və etibardan irəli gələrək, ölkəmizin iqtisadiyyatına böyük həcmdə xarici sərmayələrin qoyulması qeyri-neft sektorunun və müxtəlif sənaye sahələrinin inkişafına böyük təsir göstərir. Azərbaycan bir çox postsovet dövlətləri ilə müqayisədə ümumi iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət parametrlərinə görə qabaqcıl yerlərdən birini tutur. Bütün bu uğurlar özünün parlaq ifadəsini Vətən müharibəsində sübut etdi.

Eyni zamanda, ordu quruculuğundakı nailiyyətlər Vətən müharibəsində qələbənin əldə olunmasında mühüm rol oynamışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğunun yeni mərhələsi, hərbi hissələrin müasir standartlara uyğun qurulması, ordumuzun müasir silahlarla təminatı sahəsində görülmüş işlər xüsusilə vurğulanmalıdır. Vətən müharibəsi güclü maddi-texniki bazaya və yüksək hərbi hazırlığa, vətənpərvərlik əhval-ruhiyyəsinə malik Azərbaycan Ordusunun qüdrətini bütün dünyaya nümayiş etdirdi. Hələ müharibə başlamamışdan əvvəl dünyanın nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının məlumatında bildirilirdi ki, 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yerdədir. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqelərdən birini tutur. Bütün bunların nəticəsidir ki, Azərbaycan Ordusu işğal olunmuş ərazilərmizi erməni qəsbkarlarından yüksək hərbi peşəkarlıqla azad etdi.

**- Azərbaycanın apardığı xarici siyasətin və diplomatik mübarizənin Vətən müharibəsində qələbənin əldə edilməsində rolunu necə şərh edərdiniz?**

-Vətən müharibəsində qələbə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində xalqımızın milli maraqlarının təmin olunması sahəsində Prezident İlham Əliyevin apardığı xarici siyasət həm də Azərbaycana beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb. Cənubi Qafqazın aparıcı dövləti kimi ölkəmizin dünya birliyində mövqeyi möhkəmlənib. Digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Prezident İlham Əliyevin siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Prezident İlham Əliyevin apardığı xarici siyasət Azərbaycanı dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa İttifaqı, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının nəticəsidir. Xarici siyasət sayəsində əldə olunmuş nailiyyətlər ölkəmizin müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına mühüm təsir göstərir. Müasir dövrdə beynəlxalq aləmdə baş verən geosiyasi ziddiyyətlərə baxmayaraq, Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyən dövlət kimi dünya ölkələri arasında özünə layiqli yer tutur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün ötən illər ərzində dövlətimiz fəal və çevik xarici siyasət həyata keçirib. Dağlıq Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə müfəssəl və dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb. Ermənistanın beynəlxalq hüquqi normalara saymazyana münasibəti və Azərbaycanın haqlı tələblərinə göz yumması uzun müddət davam edə bilməzdi. Vətən müharibəsi başlayarkən dünya ictimaiyyəti Ermənistanın hərbi təcavüzkarlığı və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini bilərəkdən yerinə yetirməkdən boyun qaçırması ilə bağlı ilə bağlı kifayət qədər məlumatlara malik idi.

davamı səh. 5

# MÜBARİZ QURBANLI: "AZƏRBAYCANIN YENİDƏN DÖVLƏT MÜSTƏQİLLİYİNİ ƏLDƏ ETMƏSİ XALQIMIZIN HƏYATINDA MÜHÜM TARİXİ HADİSƏ OLDU"

əvvəli səh. 4

**- Vətən müharibəsində qələbəni təmin edən mühüm amillərdən biri də ölkəmizdəki vətəndaş həmrəyliyi və milli birlikdir. Bununla bağlı fikirləriniz maraqlı olardı...**

- Müharibə dövründə xalqımız Prezident İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirdi. Bir daha aydın oldu ki, Azərbaycan dövlətinin bütün sahələrində uğurların əldə edilməsində vətəndaş həmrəyliyi və milli birlik özünəməxsus yer tutur. Milli birliyin təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını daha da möhkəmləndirir.

Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, Azərbaycan dünyada müxtəlif sivilizasiyaların qovuşduğu tolerant məkan, multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Ölkəmizdə müxtəlif dinlər və mədəniyyətlər arasında qarşılı etimad mühiti mövcuddur. Milli və dini münasibətlərin inkişafı sahəsində Prezident İlham Əliyevin apardığı siyasət etnik və dini mənsubiyyəti, mədəni dəyərləri və adət-ənənələrindən asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəklənir. Müxtəlif dini konfessiyaların fəaliyyəti üçün yaradılmış şərait cəmiyyətin mənəvi sərvətləri sırasında vicdan və dini etiqad azadlığının özünə mühüm yer tutmasını təmin edir. Prezident İlham Əliyevin ölkəmizdəki ictimai-siyasi qüvvələr, dini konfessiyalar və müxtəlif millətlər, etnik qruplar arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində apardığı siyasətin əhəmiyyəti Vətən müharibəsində bir daha sübut edildi. Müharibə dövründə Vətənini sevən hər bir azərbaycanlı siyasi, dini və etnik mənsubiyyətindən asılı olmayaraq Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşib vətəndaş həmrəyliyi və milli birlik nümayiş etdirdilər.

**- Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq-bərpa işləri aparılır. Bunun tərkib hissəsi kimi dini ibadət yerlərinin təmiri və tikintisinə xüsusi diqqət yetirilir. Siz bu barədə nə söyləmək istərdiniz?**

- Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistanın törətdiyi dağıntıların miqyası onu görənləri dəhşətə gətirir. Bunu həmin ərazilərə səfər edən ölkəmizdəki diplomatik korpusun, eyni zamanda beynəlxalq təşkilatların və KİV-in nümayəndələri də dəfələrlə etiraf edirlər. Erməni tapdağından təmizlənən şəhər və rayonlarımızın çoxunda düşmən bir dənə də olsun salamat tikili saxlamayıb. Prezident İlham Əliyevin öz çıxışlarında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yaşayış məntəqələrinin və xalqımıza məxsus maddi-mədəniyyət abidələrinin Ermənistan tərəfindən yerlə-yeksan edildiyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması böyük əhəmiyyət daşıyır. Məlum olduğu kimi, Ermənistanın işğalından azad olunmuş ərazilərdəki xalqımıza məxsus çoxəsrlik qədim tarixi-dini abidələr də dağıdılıb və yaxud onların bir qismi saxtalaşdırılaraq erməniləşdirilib. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi Azərbaycan xalqının minilliklər ərzində yaşadığı ərazilərdə onun tarixi keçmişini və mənəvi yaddaşını məhv etmək idi. Torpaqlarımızın işğaldan azad olunmasından sonra ortaya çıxan mənzərə erməni millətçiliyinin insanlıq əleyhinə olduğunu bir daha göstərdi. Ermənilər tərəfindən müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət nümunələri, məzarlar və qəbiristanlıqlar dağıdılmaqla yanaşı, həm də təhqir olunub. Məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı erməni millətçiliyinin barbarlığını göstərir. Ermənistandan fərqli olaraq, Azərbaycanda müxtəlif dinlərə məxsus olan abidələrə dövlət səviyyəsində diqqət və qayğı göz qabağındadır. Təkcə bir fakt - Bakının mərkəzindəki erməni kilsəsinin dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilməsi ölkəmizdə dini müxtəlifliyin qorunduğunun sübutudur.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Heydər Əliyev Fondunun xalqımıza məxsus mədəni-dini irsin yenidən dirçəldilməsi istiqamətindəki fəaliyyəti xüsusi qeyd olunmalıdır. 30 illik işğaldan sonra azad olunan ərazilərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xalqımıza məxsus tarixi-dini abidələrin bərpası işlərinə başlanılıb. Prezident İlham Əliyev tərəfindən Şuşada yeni məscidin təməlinin qoyulması, Yuxarı Gövhər Ağa məscidinin təmir olunması, Zəngilanda erməni vandallığına məruz qalan məscidin, eləcə də Ağdamda "Qiyaslı" məscidinin yenidən qurulması işlərinə başlanılması, "Qazançı" kilsəsində bərpa işlərinin aparılması və s. Azərbaycan dövlətinin milli-mənəvi, tolerant dəyərləri yüksək qiymətləndirdiyini göstərir. Bu il oktyabrın 3-də Prezident İlham Əliyevin Tərtər rayonunun Talış kəndinə səfəri zamanı orada ermənilərin dağıtdığı alban-udi və rus-pravoslav kilsələrində olması, hər iki ibadətgahda təmir və bərpa işlərinin aparılacağını bildirməsi Azərbaycan dövlətinin bütün dinlərə hörmətlə yanaşdığını ifadə edir.

**- Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, qələbəmizdə mənəvi hazırlıq həlledici rol oynamışdır. Yüksək vətənpərvərlik ruhunda gənc nəsil yetişdi və torpaqlarımızı işğaldan azad etdi...**

- Azərbaycanda gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu siyasətin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların intellektual potensialından səmərəli istifadə etmək, sosial-iqtisadi məsələlərinin həllinə və s. dəstək verməkdən ibarətdir. Gənclər siyasətinin əsas vəzifələrini gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsiplərinə söykənməklə, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması və s. təşkil edir.

Prezident İlham Əliyevin siyasətində gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsi xüsusi yer tutur. Azərbaycan gənclərinin inkişafı ilə bağlı Dövlət proqramlarının uğurla həyata keçirilməsi gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Qeyd edək ki, gənclərin inkişafına dövlət səviyyəsində diqqət və qayğının nəticəsi özünü Vətən müharibəsində bir daha göstərdi. Azərbaycan gənclərinin müharibə başlayarkən könüllü və kütləvi şəkildə hərbi çağırış məntəqələrinə müraciət edərək, döyüşlərdə iştirak etmək istəkləri yüksək vətənpərvərlik əhval-ruhiyyəsinin ifadəsi idi. Vətən müharibəsində şanlı qələbənin əldə edilməsində Azərbaycan gənclərinin şücaət və qəhrəmanlığının böyük rolu olmuşdur.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimiz əsasən gənclərdən ibarətdir. Onlar Vətənimizi, xalqımızı, onun qürurunu, bayrağını ucaltdılar və ən ali məqama yüksəldilər. Xalqımıza Zəfər sevincini yaşadan Azərbaycan Silahlı Qüvvələrinin zabit-əsgər heyətinə, müharibədə sağlamlığını itirən cəsur qazilərimizə, şəhidlərimizə və onların yadigarlarına ömür boyu minnətdar və borcluyuq. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərimizə göstərilən qayğı hər birimiz üçün örnək olmalıdır. Xüsusilə, 27 sentyabr - Anım Günündə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə həyata keçirilən yürüşü xatırlatmaq istərdim. Dərin məna daşıyan bu aksiya ölkə rəhbərliyi səviyyəsində Azərbaycan xalqının öz şəhidlərinin əziz xatirəsinə verdiyi yüksək dəyərin nümunəsi idi.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidi, Təzəpir məscidi, "Jen Mironosits" pravoslav kafedral kilsəsi, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqu, Ağdam Cümə məscidi, Kəlbəcərdəki Xudavəng məbədi, Laçındakı Ağoğlan məbədi, Şuşadakı Yuxarı Gövhər Ağa məscidi və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda da dərin ehtiramla yad edilmişdir. Dini ibadət yerlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, həmçinin ölkəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar edilib. Qeyd edim ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu şəhid ailələri ilə bağlı bir çox layihələr həyata keçirir. Fondun xətti ilə şəhidlərin doğum günlərində və bayramlarda onların ailələrinin ziyarət edilməsi, "Şəhid yadigarları", "Biz Zəfərin övladıyıq" kimi tədbirlərin həyata keçirilməsi mütəmadi xarakter daşıyır.

Qarabağda erməni vandallar tərəfindən dağıdılan dini abidələr haqqında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə çəkilmiş videoçarx və sənədli filmlər televiziya kanallarında, sosial mediada nümayiş etdirilir. Komitənin təşəbbüsü ilə Vətən müharibəsi haqqında kitablar nəşr edilir, o cümlədən xarici mətbuatda müsahibə və məqalələr dərc olunur. Dövlət Komitəsi milli-mənəvi dəyərlərin təbliği, xüsusilə gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyə olunması məqsədilə KİV, eləcə də sosial media vasitəsilə maarifləndirmə işi aparır.

**- Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti nədən ibarətdir?**

- Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistanın hərbi qüvvələrini darmadağın etməklə həm də onun işğalçılıq siyasətini iflasa uğratdı. Prezident İlham Əliyevə olan yüksək inamın nəticəsi idi ki, xalqımızın vətənpərvər övladları onun çağırışına qoşularaq torpaqlarımızın işğaldan azad edilməsi uğrunda səfərbər olub silaha sarıldılar. Rəşadətli Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatında böyük şücaət göstərərək xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini və qürur duyduğunu bildirdi.

Azərbaycan dövləti erməni işğalçılarını torpaqlarımızdan qovmaqla bölgədə yeni reallıq yaratdı və 27 il idi ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Vətən müharibəsində möhtəşəm qələbə Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti və Azərbaycan Ordusunun igid, mərd, qorxubilməz döyüşçülərinin qəhrəmanlığı nəticəsində reallaşdı. Müharibənin gedişində hərbçilərimizin yüksək əhval-ruhiyyəsinin və mənəvi-psixoloji hazırlığının, döyüş tapşırıqlarını böyük məharətlə yerinə yetirdiklərinin şahidi olduq.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması Vətən müharibəsində Azərbaycanın hərbi-siyasi qələbəsini təsdiq edən tarixi hadisə oldu. Bununla da müharibənin ilk günlərindən etibarən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri Ermənistan hakimiyyətinin qəbul etməkdən başqa çıxış yolu qalmadı. Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi. İşğal olunmuş torpaqlarda dalğalanan Qələbə bayrağımız da bu möhtəşəm tədbirə gətirildi, 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Həmçinin, paradda Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də göstərildi. Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, Azərbaycan Ordusunun gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunmuş qələbə Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biridir. Xalqımız bu tarixi Zəfəri böyük səbirsizliklə gözləyirdi və hər birimiz üçün müqəddəs sayılan torpaqlarımızın azad olunması sübut etdi ki, Azərbaycan əsgəri Vətənini qorumaq uğrunda canından keçməyə hazırdır.

Müsahibəmin sonunda fürsətdən istifadə edərək, müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azad edilməsində qəhrəmancasına, rəşadətlə iştirak etmiş hərbi qulluqçuları, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini və xalqımızı qarşıdan gələn Zəfər Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bizlərə bu qürurlu günləri yaşatmaq üçün canından keçən Vətən övladlarının ailələrinə səbir diləyir, qazilərimizə cansağlığı arzulayıram.

**- Müsahibəyə görə sağ olun.**

# AZƏRBAYCAN VƏ QAZAXISTAN ARASINDA DİNİ SAHƏDƏ ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANIB





Oktyabrın 27-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyinin Dini İşlər üzrə Dövlət Komitəsi arasında videoformatda görüş keçirilib.

Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyinin Dini İşlər üzrə Dövlət Komitəsinin sədri Erjan Nukejanov Azərbaycanın ölkəsi üçün vacib tərəfdaş olduğunu vurğulayaraq iki dövlət arasındakı münasibətlərin tarixi köklərindən və ortaq dəyərlərimizdən bəhs edib. Mədəni və dini sahələrdəki sıx münasibətlərin davam etdirilməsinin önəminə diqqət çəkən E.Nukejanov Qazaxıstanın dini mühiti barədə geniş məlumat verib. Ölkəsində müxtəlif mədəniyyət və konfessiyaların inkişafı üçün bütün hüquqi, sosial bazanın yaradıldığını, eləcə də dini radikalizmə qarşı genişmiqyaslı mübarizə tədbirlərinin həyata keçirildiyini qeyd edib.

DQİDK sədri Mübariz Qurbanlı isə öz növbəsində bildirib ki, hər iki xalqın liderləri Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən əsası qoyulan dostluq münasibətlərini bu gün Azərbaycan və Qazaxıstan prezidentləri İlham Əliyev və Kasım-Jomart Tokayev uğurla davam etdirirlər. Ölkəmizdəki dövlət-din münasibətləri, tolerant və multikultural mühit haqqında məlumat verən Mübariz Qurbanlı qeyd edib ki, dövlət tərəfindən dinlərə diqqət və qayğı hər zaman prioritet hesab olunur. Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə də danışan DQİDK sədri dindən və insanların dini inanclarından istifadə etməyə cəhd edən radikal elementlərə qarşı mübarizə sahəsində görülən işlərə toxunub. Komitə sədri, eyni zamanda 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etməsinin önəmini, o cümlədən erməni vandalizmi barədə faktları diqqətə çatdırıb.

Sonda Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyinin Dini İşlər üzrə Dövlət Komitəsi arasında Memorandum imzalanıb. Dini sahədə əməkdaşlığı və təcrübə mübadiləsini gücləndirmək məqsədilə tərəflər arasında imzalanan Memorandumda qarşılıqlı maraq doğuran məsələlər barədə konfranslar, dəyirmi masalar və digər bu kimi tədbirlərin təşkil edilməsi, zərərli dini ideologiyanın və dini ekstremizmin təzahürlərinin yayılmasının qarşısının alınması üzrə maarifləndirmə işlərinin aparılması, dini təhsil müəssisələri arasında əməkdaşlığın dəstəklənməsi kimi müddəalar öz əksini tapıb.

# DİN VƏ ƏDƏBİYYAT



**Səyyad ARAN,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin I müavini, Filologiya elmlər namizədi*

Din insanın yaranması, ölüm kimi ekzistenisial məsələlərə işıq saçdığından bədii təfəkkürü müəyyən dini yanaşma olmadan təsəvvür etmək çətindir. İstənilən bədii ədəbiyyat nümunəsi həm onun yazıldığı dövrün dini təmayülləri, həm də müəllifin mövqeyi barədə oxucuya məlumat verir, onu həyatın mənası, yaxşı və pis əməllər, onların aqibəti barədə düşünməyə sövq edir.

Din insanların hisslərinə, düşüncəsinə, beləliklə, davranışına təsir edən vasitə, ədəbiyyat isə insanın arzu və istəklərinin, duyğularının obrazlı təcəsümü olduğundan istənilən halda onların yolu kəsişir və eyni məqsədə - insanın bu həyatda daha anlamlı, məqsədyönlü yaşamağına xidmət edir.

Humanist dəyərləri təbliğ edən elə bir dini-fəlsəfi düşüncə yoxdur ki, öz bədii əksini tapmamış və oxucuların qəlbinə yol tapmamış olsun. Hətta ateizm ideologiyasının təbliğ olunduğu Sovet dövründə yaradılan ədəbiyyat nümunələrində belə din, Allah, şeytan, qismət mövzuları qələmə alınmış, Bibliya və Qurana istinadlar olmuşdur. Ədəbi simalar zaman-zaman insanların pis əməllərindən, şər və cinayətlərindən sarsılaraq, onları düz yola çağırmaq üçün, habelə dövrün siyasi rejiminə etiraz olaraq dini simvollardan istifadə etmişlər. Mixail Bulqakov İblisin ateist Sovetlər birliyinə səfərindən bəhs edən "Master və Marqarita" əsərində ən parlaq İblis obrazlarından birini yaratmışdır.

Azərbaycan ədəbiyyatında dini-fəlsəfi baxışların bədii düşüncəyə, ədəbi fikrə ciddi şəkildə təsir etdiyi dövr olmuşdur. Belə ki, təriqət ideyaları və görüşləri ədəbiyyatımızda XII əsrdə Nizami, Xaqani kimi sənətkarlarımızın yaradıcılığı ilə başlayıb XIX əsrin sonuna qədər davam edərək böyük bir dövrü əhatə etmişdir. Azərbaycan ictimai-tarixi və ədəbi-mədəni mühitində sufizm və hürufizm - iki təriqət cərəyanı mövcud olmuşdur.

Sufizmin, hürufiliyin tarixini, mahiyyətini, əsas ideya və baxışlar sistemini, simvollarını bilmədən Həsənoğlu, M.Əvhədi, M.Şəbüstəri, F.Nəimi, İ.Nəsimi, Ə.Təbrizi, M.C.Həqiqi, Ş.Q.Ənvar, Xəlili, M.Füzuli, Ə.S.Nəbati və başqa çoxsaylı sənətkarlarımızın əsərlərini, ideya və obrazlar aləmini anlamaq mümkün deyil.

Təsəvvüf və irfan düşüncəsində son və başlıca məqsəd kamil insan problemidir. Təsəvvüf ideoloqları insanları dini, irqi, milli, cinsi və s. mənsubiyyətlərinə görə fərqləndirib bu ələmətlərə əsasən birini digərindən üstün hesab etmir. Kəbə ilə kilsə, məscidlə bütxanə, müsəlmanla xristian həqiqət əhlinin nəzərində mahiyyətcə eyni, bir-birindən fərqli olmayan varlıqlar sayılır:

Kəbəvü deyr nədir, qeyr nədir, seyr nədir?
Məscidü bütkədəvü xirqəvü zünnar nədir? (Nəsimi)

Mükəmməl mənəvi-əxlaqi davranış normaları, bütöv dini-fəlsəfi etiqad sistemi olan təsəvvüf ədəbi simaların yaradıcılığını zənginləşdirən mənbə olmuşdur. XII əsr şairlərimizin yaradıcılığında sufizm meylləri ötəri də olsa təzahür edir. XIII əsrdən etibarən bu meyl güclənir. XIII-XIV əsrlərdə İ.Həsənoğlu, M.Şəbüstəri, Z.Şirvani, M.Əvhədi, Ə.Təbrizi, İ.Nəsimi və başqaları XV-XVI əsrlərdə Q.Ənvar, Xəlili, Kişvəri, İ.Gülşəni, Həbini, Xətai, Füzuli kimi sənətkarlarımızın yaradıcılığında təriqət ideyaları ciddi bədii əksini tapmışdır.

Təriqət ədəbiyyatını yaradanlar mənsubiyyətinə görə müxtəlifdir. Onların bir qismi bilavasitə təriqət başçılarıdır. Ə.Yəsəvi (yəsəvilik), C.Rumi (mövləvilik), S.Ərdəbili (səfəviyyə) kimi. Bəziləri ayrıca təriqət yaratmasalar da, müəyyən təriqətin üzvü, hətta şeyx olmuşlar. Məsələn, İ.Həsənoğlu, M.Əvhədi, Ş.İ.Xətai və başqaları Üçüncü bir qism şairlər isə konkret hər hansı bir təriqətə mənsub olmamış, lakin yaradıcılıqlarında təsəvvüf və irfan ideyalarını əks etdirmiş, onun obraz və rəmzlərindən bəhrələnmişlər. Məsələn, Füzuli kimi.

Azərbaycanın orta əsrlər ictimai, dini-fəlsəfi və ədəbi-mədəni gerçəkliyində sufizmdən sonra öz əksini tapan ikinci bir təriqət cərəyanı hürufilikdir. Hürufilik dini-fəlsəfi təriqət kimi, əsasən, XIV-XV yüzilliklərdə özünü təzahür etdirir.

XIII-XV əsrlər Azərbaycan ədəbiyyatının ən böyük ədəbi siması İ.Nəsimi bu təriqətin nümayəndəsidir. Onun şeirlərinin çoxu da hürufilik ideyalarının bədii ifadəsinə və təbliğinə xidmət edir.

Nəsimidən başqa, XIV-XV əsrlər ədəbiyyatımızı təmsil edən F.Nəimi, M.C.Həqiqi, Süruri, Tüfeyli və başqa hürufiməslək şairlərimiz də var ki, onlar ədəbiyyatımızın yüksəliş tarixində əhəmiyyətli rol oynamışlar.

Təriqət ədəbiyyatının izləri sonrakı dövr ədəbiyyatımıza təsirsiz ötüşməmişdir. Vahid yaradana inam, Allaha təvəkkül, haqla nahaqqın ayırd edilməsi, Tanrının mərhəmətinə sığınma, pis əməllərdən tövbə, xeyir işlərə çağırış həmişə ədəbiyyat nümunələrində təbliğ olunmuşdur.

İslamın yayılmasından sonra Azərbaycan ədəbiyyatında dinsizlik heç zaman yer almamışdır. Əksinə, ədəbiyyat nümunələri vasitəsilə xürafat tənqid edilmiş, insanlar cəhalətlə mübarizəyə çağrılmışlar. Çünki xalqımız inanclı olmuş, uzun əsrlər boyunca din və adət-ənənələr xalqımızın milli mənəviyyatını formalaşdırmışdır.

# “BƏZİ QÜVVƏLƏR ÖLKƏMİZDƏ DÜNYƏVİLİYİN ZƏİFLƏDİLMƏSİ, MƏZHƏBÇİLİK MEYİLLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN CANFƏŞANLIQLA ÇALIŞIRLAR”

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Bakupost.az-a müsahibəsi.***



**- Səyavuş müəllim, bildiyiniz kimi, İran-Azərbaycan münasibətlərində son dövrlərdə gərginlik hiss edilir. Bu prosesin ölkədəki dini duruma təsirini necə qiymətləndirirsiniz?**

- Nəzərinizə çatdırım ki, müstəqilliyimizin ilk illərindən dini müstəvidə ölkəmizə qarşı həmişə təhdidlər mövcud olub. “Şəriət dövləti” modelini Azərbaycana inteqrasiya etmək istəyən qüvvələrin fəaliyyəti heç kəs üçün sirr deyil. Hətta 90-cı illərin əvvəllərində gənclərimiz dini təhsil adı altında xarici ölkələrə, o cümlədən İran İslam Respublikasına aparılaraq siyasi-ideoloji mübarizənin alətinə, hərbi təlimlərin subyektinə çevrilirdi. Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə gəlməsindən sonra aidiyyəti dövlət qurumlarının səyi nəticəsində bu prosesin qarşısı alındı. Ancaq bu gün müşahidə edirik ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə bir çox xarici qüvvələri narahat edir. Şübhəsiz ki, bu proses ölkələrarası münasibətlərə də müəyyən mənada öz təsirini göstərir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədəki dini duruma yönəlmiş təhdidlərin qarşısının alınması istiqamətində öz səlahiyyətləri çərçivəsində, aidiyyəti dövlət orqanları ilə birlikdə məqsədyönlü fəaliyyətini davam etdirir və bu sahə dövlətin tam nəzarətindədir.

**- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hazırda bu istiqamətdə fəaliyyəti nədən ibarətdir?**

- Bilirsiniz, Dövlət Komitəsi mərkəzi icra hakimiyyəti orqanıdır və öz fəaliyyətini ona verilmiş səlahiyyətlər əsasında formalaşdırır. Komitənin əsas vəzifələrindən biri ölkəmizdə dini zəmində ideoloji təhlükəsizliyi təmin etməkdir. Bu məqsədlə dini maarifləndirmə, inzibati və ideoloji mübarizə istiqamətində davamlı tədbirlər həyata keçirilir. Konkret İranla bağlı mövzuya gəldikdə isə bu məsələnin Azərbaycandakı dini duruma təsirləri və yarada biləcəyi təhdidlər müəyyənləşdirilir və araşdırılır. Azərbaycan müstəqillik tarixində vaxtaşırı dinin siyasiləşdirilməsi, məzhəbçilik, gənclərimizin yad ideologiyalara qurban edilməsi cəhdləri ilə üz-üzə qalıb. Müxtəlif vaxtlarda biz bunun təzahürlərini görmüşük. Hətta bu gün də bəzi vətəndaşlarımız İranda, digər ölkələrdə təsir altına düşərək ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Azərbaycanın dünyəvi dövlət modeli, eləcə də multikultural və tolerant ənənələri çoxlarını qane etmir. Bəzi qüvvələr Azərbaycanda dünyəviliyin zəiflədilməsi, dinin siyasiləşdirilməsi, məzhəbçilik meyillərinin gücləndirilməsi istiqamətində canfəşanlıqla çalışırlar. Ancaq bildirmək istəyirəm, dövlətimiz öz ideoloji sütunlarını qorumaq üçün kifayət qədər qüdrətə və imkanlara sahibdir.

**- Səyavuş müəllim, müsəlman ölkəsi olan İranın Ermənistanla bu qədər sıx və mehriban əlaqələr qurmasını nə ilə əlaqələndirirsiniz?**

- Bu həqiqətən də maraqlı sualdır. Bu sual hər kəs kimi məni də düşündürür. Məscidləri yerlə-yeksan edən, qəbirləri dağıdan, bir milyondan çox müsəlmanı yurd-yuvasından didərgin salan, bəşəriyyətə qarşı vandalizm aktı törədən bir ölkə ilə müsəlman ölkəsinin mehribanlığına məntiqi izah tapmaq çox çətindir. Ancaq biz işğal dövründə Şuşadakı Yuxarı Gövhər Ağa məscidinin tarixi mənsubiyyətini dəyişmək cəhdlərinin də şahidi olmuşuq. Şükürlər olsun ki, Ermənistan və onun havadarları buna nail ola bilmədi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalət bərpa edildi. Azərbaycanın milli-mənəvi dəyərlər sisteminə, dövlətçilik ənənəsinə, sürətli inkişafına əngəl törətməyə yönəlmiş cəhdlərin qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, ölkəmiz bütün təhdidlərə baxmayaraq öz haqq yolu ilə inamla irəliləyəcəkdir. Ölkəmizdə bütün dinlərin və məzhəblərin nümayəndələri bir ailə kimi yaşayır. Biz Vətən müharibəsində çiyin-çiyinə döyüşmüşük, hazırda Qarabağımızı da çiyin-çiyinə bərpa edirik. Milli birliyimiz və dini həmrəyliyimizə heç bir qüvvə kölgə sala bilməz. Heç kim bizi bu yoldan döndərə bilməz.

# “DİNİ RADİKALİZM VƏ EKSTREMİZM, DİNİ AYRI-SEÇKİLİK”



Oktyabrın 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və “Bakı Metropoliteni” QSC-nin birgə təşkilatçılığı ilə “Dini radikalizm və ekstremizm, dini ayrı-seçkilik” mövzusunda konfrans keçirilib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov, “Bakı Metropoliteni” QSC sədrinin müşaviri Mehdi Məmmədov, QSC-nin Aparat rəhbəri Tərlan Dadaşov, mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Məmmədov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Metropolitenin digər məsul şəxslərinin iştirak etdiyi tədbirdə öncə 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə açan Tərlan Dadaşov mövzunun əhəmiyyətindən danışıb. O, bu cür tədbirlərin keçirilməsinin olduqca əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. T.Dadaşov Dövlət Komitəsinin gənclərin milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi, eyni zamanda dini maarifləndirmə sahəsində gördüyü işləri xüsusi vurğulayıb.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi zəfərdən, bu qələbənin qazanılmasında Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik və uzaqgörən hərbi-siyasi gedişlərindən, Azərbaycan Ordusunun şücaətindən, eləcə də xalqımızın nümayiş etdirdiyi milli və dini həmrəylikdən bəhs edib.



Respublikamızdakı etnik və dini rəngarəngliyə də toxunan sədr müavini Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycana xas multikultural modelin regionda və dünyada özünəməxsus nümunə olduğunu bildirib. S.Heydərov təəssüf hissi ilə vurğulayıb ki, ölkəmizdə mövcud olan milli və dini həmrəyliyin pozulmasına, məzhəbçiliyin güclənməsinə yönəlik cəhd hallarına da rast gəlinir.

Sədr müavini vətəndaşların, o cümlədən gənclərin yad, zərərli dini ideologiyadan qorunması istiqamətində təmsil etdiyi Komitənin digər müvafiq orqanlarla birgə gördüyü işlərdən danışıb. Dini radikalizm və ekstremizm barədə də məlumat verən sədr müavini bildirib ki, dini radikalizm ideoloji, ictimai və milli təhlükəsizlik müstəvilərində özünü büruzə verir. Eyni zamanda S.Heydərov deyib ki, bəzi halllarda dini kimliyin milli kimliyə qarşı qoyulmasına rast gəlinir. “Xaricdə dini təhsil alan bəzi gənclər öz mənəvi dəyərlərini, tarixi keçmişini unudurlar. Adət-ənənələrimizə, milli bayramlarımıza qarşı çıxırlar”-, deyə sədr müavini əlavə edib.

Səyavuş Heydərov xaricdə fəaliyyət göstərən Azərbaycan diasporuna qarşı dini zəmində yönəlmiş təhdid hallarının da mövcudluğunu vurğulayıb: “Hətta bu gün də, bəzi vətəndaşlarımız İranın, digər ölkələrin təsir altına düşərək ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Azərbaycanın dünyəvi dövlət modeli, eləcə də multikultural və tolerant ənənələri çoxlarını qane etmir. Bəzi qüvvələr Azərbaycanda dünyəviliyin zəifləldilməsi, dinin siyasiləşdirilməsi, məzhəbçilik meyillərinin gücləndirilməsi istiqamətində canfəşanlıqla çalışırlar. Ancaq bildirmək istəyirəm, dövlətimiz öz ideoloji sütunlarını qorumaq üçün kifayət qədər qüdrətə və imkanlara sahibdir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, eləcə də digər müvafiq dövlət qurumlarımız bu kimi cəhdlərin qarşısını alır və bundan sonra da alacaq”.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# MACARISTANDA "MÜASİR AVROPANIN SÜTUNLARI: DİNİ İCMALARIN BİRGƏYAŞAYIŞI" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Macarıstanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində həmin ölkənin Baş naziri Ofisinin Kilsə və Milli Azlıqlarla Əlaqələr üzrə Dövlət Katibliyi tərəfindən 13-15 oktyabr tarixlərində Macarıstanın Debretsen şəhərində "Müasir Avropanın sütunları: dini icmaların birgəyaşayışı" mövzusunda konfrans təşkil edilib.

Konfransda Avropa sivilizasiyasının dəyərlər sisteminin dini əsası, vicdan və din azadlığı, din və məzhəblərin ortaq məsuliyyəti, dinlərarası dialoq məsələləri, həmçinin 21-ci əsrin mənəvi çağırışları (ailənin rolu, insan həyatının qorunması məsələsi, hüquq və mənəviyyat arasında əlaqə) kimi mövzular üzrə müzakirə aparılıb, məruzələr edilib.

Simpoziumda Macarıstanın Kilsə və Milli Azlıqlarla Əlaqələr üzrə Dövlət katibi Miklos Soltesz, Beynəlxalq Persepsiya üzrə Dövlət katibi Tamas Menczer, Avropa Şurasının Anti-semitizm, dini dözümsüzlüyün digər formaları və nifrət cinayətləri üzrə xüsusi nümayəndəsi Daniel Höltgen, Avropa Parlamentinin üzvü György Hölvenyi kimi rəsmi şəxslərlə bərabər, Macarıstanın Yəhudi icmalarının prezidenti Peter Feldmajer, Macarıstan İslam icmasının prezidenti Zoltan Bolek,




Macarıstan Kilsələr Şurasının baş katibi Vilmos Fişil və digər din xadimləri ilə yanaşı, Fransa, Cənubi Afrika, İsveçrə Konfederasiyası, Vatikan və digər ölkələrin din xadimləri və alimləri iştirak ediblər.

Tədbirdə Azərbaycanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev təmsil edib. Şöbə müdiri 15 oktyabrdakı əsas sessiyada və müzakirədə "Avropa Şurasına üzv dövlət nümunəsində din və dövlət: Azərbaycan" mövzusunda məruzə və təqdimatla çıxış edib.

Məruzədə Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələrinin tarixi kökləri və müasir dövrdəki vəziyyəti, Azərbaycanda tarixən mövcud olmuş dinlər, dövlət-din münasibətləri sahəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın apardığı multikulturalizm siyasəti, ölkədə fəaliyyət göstərən dini icmalara dövlət qayğısı və s. barədə geniş məlumat verilib.

Həmçinin 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın müddət ərzində işğal altında saxlanılması, tarixi-dini abidələrimizin dağıdılması və təhqir edilməsi, mənimsənilməsi, o cümlədən Azərbaycan dövlətinin ötən il 44 gün ərzində öz ərazi bütövlüyünü bərpa edərək torpaqlarını işğalçılardan azad etməsi barədə də iştirakçılara geniş məlumat verilib.

Qeyd edək ki, tədbir çərçivəsində Dövlət Komitəsinin nümayəndəsi tərəfindən Dövlət Komitəsinin nəşri olan "İşğal edilmiş ərazilərdə Azərbaycanın dini-tarixi abidələri" kitabı və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin "Azərbaycanın mədəni və tarixi irsinin Ermənistan tərəfindən mənimsənilməsi" hesabatı tədbir iştirakçılarının diqqətinə təqdim edilib.

Konfrans oktyabrın 15-də öz işini yekunlaşdırıb.

# TARİXÇİ ALİMİN MƏQALƏSİ UKRAYNADA DƏRC OLUNUB

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elçin Cabbarovun rus dilində "Müasir dövrdə terrora qarşı mübarizə: "Yumşaq qüvvə"nin Azərbaycan modeli" ("Borba protiv terrora na sovremennom etape: Azerbaydjanskaya model "myaqkoy sılı") məqaləsi Ukraynanın V.İ.Vernadski adına Tavriya Milli Universitetinin Elmi Xəbərlərinin (Tarix elmləri seriyası) 2021-ci il 3-cü sayında dərc edilib.

Məqalədə münaqişələrin mədəniyyət müstəvisində həlli işinin XXI əsrin vacib tələbi olması məntiqindən çıxış edərək, müasir dövrdə humanitar diplomatiyanın terrora qarşı mübarizədə güclü müdafiə platforması və əks-hücum cəbhəsi formalaşdırdığı fikri əsaslandırılır. Terrora qarşı mübarizədə milli humanitar təsir mexanizmləri kompleksindən "yumşaq qüvvə" kimi istifadəyə diqqət çəkilir, daşıyıcısı olduğumuz milli-mənəvi dəyərlərin, Azərbaycan mənşəli modern sosial xidmət sahələrinin dəstəyi ilə terrora qarşı mübarizənin ən qabaqcıl taktika olduğu fikri irəli sürülür. Elmi müddəalar Azərbaycan Respublikasının dövlət siyasəti, o cümlədən Ermənistan – Azərbaycan münaqişəsində Azərbaycan humanitar diplomatiyasının təcrübəsi, Azərbaycan mənşəli "yumşaq qüvvə"nin forma və məzmunu bazasında əsaslandırılır. Münaqişələrin müəyyən mərhələsində "yumşaq qüvvə"nin "sərt qüvvə"nin tətbiqini istisna etmədiyi qənaəti isə 2020-ci ildə qələbə ilə yekunlaşan "Dəmir yumruq" əməliyyatının təcrübəsi ilə vurğulanır. Beləliklə, müasir dövrdə terrora qarşı mübarizədə "Azərbaycan modeli" qalib taktika kimi təqdim edilir.

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA İNSAN PROBLEMİ



Dahi Azərbaycan şairi Nizami Gəncəvinin poeziyası insanın mahiyyəti, onun cəmiyyətdə yeri və rolu, təbiətə münasibəti ilə bağlı dini-fəlsəfi fikirlərlə zəngindir. Mütəfəkkir şair insan probleminə dair düşüncələrini özünün poemalarında böyük ustalıqla, poetik şəkildə ifadə edir. Nizami Gəncəvi insanı kainatın əşrəfi olan ali varlıq adlandırır. Şairin yaradıcılığında insan-təbiət-cəmiyyət münasibətləri vəhdət halında götürülür.

Qeyd edək ki, insan problemi qədimdən başlayaraq mifologiya, din və fəlsəfə kimi dünyagörüşü formalarının diqqət mərkəzində dayanan məsələlərdən biri olmuşdur. İnsanın mahiyyəti haqqında ilk təsəvvürlər hələ fəlsəfə formalaşmamışdan əvvəl meydana gəlmişdir. Tarixin ilkin mərhələlərində insana münasibət mifoloji və dini şüur çərçivəsində müəyyən edilirdi. Əfsanələrdə, rəvayətlərdə və miflərdə insanın varlığına dair mülahizələr, əsasən, totemizm formasında özünü göstərirdi.

İnsan problemi haqqında tarixən müxtəlif filosoflar və fəlsəfi cərəyanlar (təbiət fəlsəfəsi, rasionalist fəlsəfə, fəlsəfi antropologiya və s.) bir-birindən fərqli ideyalarla, fəlsəfi sistemlərlə çıxış edir. İnsanın mahiyyətinin ayrıca, xüsusi fəlsəfi problem kimi öyrənilməsinə, əsasən, Antik dövrün fəlsəfəsində başlanılmışdır. Orada insana kosmosentrizm nöqteyi-nəzərindən yanaşılmış, ona kosmosun bir hissəsi, makrokosmun ümumi qanunlarına tabe olan mikrokosm kimi baxılmışdır. Antik fəlsəfəyə görə, insan kosmosun, hansısa fövqəltəbii "nizamın" və kainatın simvoludur. İnsanın ruhu və zəkası haqqında təlim qədim yunan filosofu Sokratın fəlsəfəsində aparıcı yer tutmuşdur. Onun "Özün özünü dərk et!" fikri bir çox fəlsəfi təlimlərin devizinə çevrilmişdir. Antik dövrün filosofları həyatın mənası haqqında məsələyə müxtəlif tərəflərdən yanaşırdılar. Məsələn, Sokrat həyatın mənasını xoşbəxtlikdə görürdü və bildirirdi ki, ona nail olmağın yolu xeyirxahlıqdan, əxlaq normalarına əməl etməkdən və s. keçir. Platona görə, həyatın mənası ruha qayğı göstərməkdir. Aristotelin fikrincə, həyatın mənası mərd, səxavətli və məsuliyyətli insan olmaqla bağlıdır. Epikür qeyd edir ki, həyatın mənası xoşbəxtlik, sakitlik və zövq almaqdır.

Antik dövrün mütəfəkkirlərinin – Sokrat, Platon (Əflatun), Aristotel (Ərəstu), Miletli Fales (Valis), Porfiri (Farfuriyus), Plin (Bəlinas) və b. fikirləri, eyni zamanda İslam dini Nizami Gəncəvinin insan probleminə dair baxışlarına böyük təsir göstərmişdir. Dahi şair insanın kainatın sirlərini dərk etməyə çalışması, insan-təbiət, insan-cəmiyyət münasibətləri, həyatın mənası və s. məsələlərlə bağlı özünəməxsus fikirlərlə çıxış etmişdir. Nizami Gəncəvi kainatın yaranması ilə bağlı bildirir:

Nə yolla yarandı boşluqdan aləm?
Bir söz lazımdır ki, bağlı sirlər
Açılsın qönçə tək, şadlansın səhər.

Şair öz şerlərində dünyadakı varlıqları Tanrının yaratdığını qeyd edir. Onun fikrincə, Tanrının özü özündən, insan isə onun əzəmətindən yaranmışdır. Tanrı bənzərsizdir, onun varlığında hansısa surət və tərkib görünmür. Nizami Gəncəvi bildirir ki, ən müdrik alimlər və peyğəmbərlər belə Tanrının sirlərinə vaqif ola bilməmişlər. Tanrının əbədi və dəyişməz, insanın isə gəldi-gedər olduğunu vurğulayan şair Tanrıya müraciətində bildirir:

Sən özündən doğuldun, biz sənin cəlalından.
Varlığında görünmür nə surət, nə də tərkib,
Heç kimə bənzəməzsən, de kim sənə bənzəyib?
Dönməz, dəyişməz varlıq tapılarsa o, sənsən,
Ölməyib, ölməyəcək qüdrət varsa, o, sənsən.
Sən - yaşarı və sonsuz, bizsə - gəldi-gedəri,
Hökmündədir kainat, yerin, göyün mehvəri.

Nizami Gəncəvi bütün varlıqların Tanrının qarşısında kiçik olduğunu qeyd edir. İnsanın Tanrının bəndəsi olduğunu bildirir:

Hamımız bir sənin bəndənik, əlbət.
Kainat adlanır qurduğun əsər,
Sənin əlaltındır altı cəhətlər.
Sən o varlıqsan ki, kəc baxsa insan,
Bir dəmdə kor olar gözləri, inan.

Nizami Gəncəvi qeyd edir ki, kainatın yaranması tarixini öyrənmək həmişə insanı düşündürmüş və o, buna ağlın, idrakın vəzifəsi kimi baxmışdır. Dünyanın varlığı və onun yoxluqdan necə yarandığı həmişə suallar doğurmuşdur. Elm daim kainatın sirlərini öyrənməyin axtarışındadır. İnsanın elmsiz yaşaması qeyri-mümkündür. Nizami Gəncəvi kainatın sirlərinin dərk edilməsində elmə böyük dəyər verir. Şairin sözlərinə görə, insan varlığı böyük hikmətə malikdir və o, dünyanın gərdişini (hərəkətini) anlamağa çalışır. İnsan kainatın sirlərini tam şəkildə dərk edə bilsəydi bir göz qırpımında bütün dünyanı gəzərdi. Nizami Gəncəvinin əsərlərində insan təbiətlə sıx şəkildə təsvir edilir.

davamı səh. 9

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA İNSAN PROBLEMİ

əvvəli səh. 8

Dahi şair qeyd edir ki, təbiət insana xidmət üçün yaradılmışdır. Buna görə insan təbiətin qədrini bilməli və onu qorumalıdır.

Nizami Gəncəvi insanı idraka malik olan qüdrətli varlıq adlandırır, təbiətin və cəmiyyətin inkişaf qanunauyğunluğunun dərk edilməsində insan zəkasına böyük əhəmiyyət verir. O, kainatın hərəkətinin müəyyən nizama əsaslandığını və məqsədyönlü xarakter daşıdığını bildirir.

Başlanğıc hərəkət olmasa əgər
Hərəkət edərmi bir çəhrə məgər?
Hərəkət verərsə ona bir insan,
O da hərlənəcək yəqin bir zaman.
Kainat özü də belə dövr edir,
Gövhər tanıyana aydındır bu sirr.

İnsanın cəmiyyətdə yeri və roluna dair Nizami Gəncəvinin görüşlərini təhlil edərkən məlum olur ki, dahi şair insanın bioloji varlıq kimi, həm də sosial mahiyyət daşımasına böyük əhəmiyyət vermişdir. Məlumdur ki, insan fiziki və son dərəcə təkrarsızlığa malik olan varlıqdır. Digər tərəfdən, insan ictimai ünsiyyət və birgəfəaliyyət əsasında formalaşan şüura və zəkaya sahibdir ki, bu da onun biososial mahiyyətini ifadə edir. İnsan zəkası vasitəsilə özünün keçmişi haqqında fikirləşir, onu tənqidi qiymətləndirməyi bacarır və öz gələcəyi ilə bağlı məqsədlər müəyyənləşdirir. İnsana şüurlu və məqsədyönlü yaradıcılıq fəaliyyəti xasdır. İnsan öz hərəkətlərinin nəticələrini, təbiətdə gedən prosesləri və onların inkişaf istiqamətlərini proqnozlaşdırmaq qabiliyyətinə malikdir. O, öz fəaliyyətilə mənəvi-əxlaqi dəyərlər yaradır. Bütün bunlardan çıxış edən Nizami Gəncəvi insanlıq mərtəbəsinin bütün xilqətlərdən (yaradılanlardan) üstün olduğunu bildirir.

Dahi şair fələklər (səma, asiman) qədər uca olan insanı başqalarına yaxşılıq etməyə və yardım göstərməyə, həyatda nikbin olmağa çağırır. Onun fikrincə, kamil insan nəfsini saxlayandır. İnsan öz nəfsini tərbiyə etməli və sağlamlığını qorumalıdır. Nizami Gəncəvinin yaradıcılığında xoşbəxtlik və xeyirxahlığa insanın mahiyyətini ifadə edən anlayışlar kimi baxılır. Şairə görə, həyat xoşbəxtliyə can atmaqdır, xeyirxahlıq isə insanın bu yolda istəklərinə nail olmağa kömək edir. Xeyirxahlıq insanın adillik nişanəsidir. İnsan dünyada gəldi-gedərdir, ona görə də yaşadığı müddətdə xeyirxah işlər görməlidir.

Mütəfəkkir şair bildirir ki, dünyada xeyirlə şər, kədərlə sevinc arasında mübarizə gedir. İnsan nə vaxtsa həyatdan köçsə də, o, xeyirxah əməlləri ilə xatirələrdə yaşayacaq, bu dünyada sözü yadigar qalacaqdır. Nizami Gəncəviyə görə, insan ünsiyyətcil olmaqla və çalışqanlığı sayəsində qarşısına qoyduğu məqsədlərə çata bilər. İnsan hansısa işə başlamamışdan əvvəl onun nəticəsini düşünməlidir. O, gördüyü hər bir işi təmkinlə yerinə yetirməlidir ki, uğurlu olsun.

Dahi şair qeyd edir ki, zəhmət çəkənlər onun səfasını görür. Əməksevər insan gördüyü işdən zövq alır. Hər zəhmətin sonunda bir səadət var. Bəziləri bunu dərk etmir və öz aqibətini düşünmür ki, bu da təəssüf doğurur:

Aqibəti düşünmək - yüksəliş imkanımız!
Öz sonunu düşünmək imkanımız var bizim,
Başqa xilqətlərə bu, qismət deyil, əzizim.
Sevgi, həyat nəşəsi şirin olsa da candan,
Aqibəti düşünmək ondan da xoşdur, inan.

Nizami Gəncəvi insan zəkasını ən ali dəyər kimi qiymətləndirir. Şair hesab edir ki, insan daim həyatın mənasının axtarışında olmalı, qarşısına məqsədlər qoymalı və onlara çatmağın yollarını tapmalıdır. İnsan o halda xoşbəxtdir ki, özünü dərk edir. O, torpaqdan yaransa da, zəkası ilə kainatın bütün sirlərini öyrənməyə çalışır.

Nizami Gəncəvi insanın hədər yerə boş vaxt keçirməyinin mənasız olduğunu bildirir. İtirilmiş vaxtın geriyə qaytarılmasının qeyri-mümkünlüyünü qeyd edir. O, insanı özünüdərketməyə və gördüyü işlərin mahiyyətini anlamağa çağırır. Şair vaxtını əsasən əyləncələrlə keçirən insanı tənqid edir. Onun fikrincə, insan mənalı ömür yaşamalı, xeyirxah işlərlə məşğul olmalıdır ki, bu dünyadan köçəndə başqalarının yaddaşında xoş əməlləri ilə xatırlansın.



Qeyd edək ki, insan varlığının mahiyyətində özünüifadəyə və dərketməyə cəhd dayanır. Bu aspektdən yanaşsaq görərik ki, Nizami Gəncəvi insanın özünü, eyni zamanda təbiətdə və cəmiyyətdə gedən prosesləri mahiyyətini dərk etməsinə böyük əhəmiyyət verir:

Yerləri, göyləri öyrənək bir-bir,
Qalmasın bizimçin açılmamış sirr.
Görək, kim yaratmış bu təbiəti,
O kimdir, işinin nədir hikməti?
Bu varaq üstündə çəkilən hər xətt
Sənətkar əliylə yaranmış, əlbət.

Nizami Gəncəvi insanın dünyanı həqiqətin gözüylə (rasional şəkildə) dərk etməyə çalışdığını bildirir. Şairin sözlərinə görə, dünyanın yaradılışının mahiyyətini insanın dərk etməsi və onun sirlərini öyrənməsi çox çətindir:

Xilqətin sirrini az ara, az gəz,
O, adi gözlərlə görünə bilməz.
Elə toxunmamış bu ip əzəldən
Ki, onun ucunu tapa biləsən.
Tanrı qüdrətiylə düyüm bağlayan
Bu ipi açmamış, açammaz insan.

Nizami Gəncəvi yaradıcı insana və sözə böyük əhəmiyyət verir. O bildirir ki, söz yaradıcı insanın gücüdür. İnsan yazıb-yaratmaqla düşüncələrini qoruyub saxlayır. Onun fikirləri sözlə başlayır və bitir. İnsanın yazdıqları dünyaya şölə saçır. Cəmiyyətdə qayda-qanunların yaradılması və böyük kəşflər sözün qüdrəti sayəsində mümkün olur. Dahi şairin fikrincə, söz insanı istiqanlı etməklə ona yaradıcılıq ilhamı verir. İnsan nitqinin qüdrəti sözlə bağlıdır. Buna görə də:

Nə qədər ki cahan var, sözün coşsun qoy səsi,
Qoy sözlə tazələnsin Nizaminin nəfəsi.

Şair bildirir ki, yaradıcı insan üçün söz gövhərə və ləlő bənzəyir. Əgər hansısa insan söz aləmində mövqe tutmuşdursa, onun özü yerdə olsa da, ruhu göylərdə yaşayır. Dərin düşüncəli sənətkar sözlə iki cahanın (bu dünyanın və axirət aləminin) nemətlərini qazanır. İncə söz memarı olan şairin ilham pərisi onu dünyada güclü misraları ilə tanıdır.

Nizami Gəncəvi qiymətli sözə böyük dəyər verərək bildirir ki, şair süst olub oturmamalı, göylərə ucalan söz yaratmalıdır. O, elə bir şer yazmalıdır ki, dünyanın şah əsəri onunku olsun. Lakin, yaradıcı insan qiymətli əsərlərə malik olsa da, bundan heç vaxt loğvalanmamalıdır. Ondan da gözəl əsərlərin yaradıla biləcəyini düşünməlidir. Nizami Gəncəvi şairi təfəkkür meydanında oda bənzədir. Onun fikrincə, şer hətta Tanrının mələklərini belə ofsunlayır.

Nizami Gəncəvi insanlara mərdlik, xeyirxahlıq, səbirli olmaq və s. əxlaqi keyfiyyətlər aşılayır, məhz onların sayəsində xoşbəxtliyə nail olmağın mümkünlüyünü qeyd edir. Dahi şair insanları vicdanlı olmağa, mənəvi dünyalarını saflaşdırmağa, həsəd və paxıllıqdan uzaq durmağa çağırır. Onun fikrincə, insan həyatda dəyanətli və dözümlü olmalı, üzləşdiyi çətinlikləri aradan qaldırmağı bacarmalıdır. İnsan ədalətli olmalı, əks halda, heç kim onu aqil adlandırmaz. Ədalətli insan dünyada ən böyük səadət tapar. Ədalətin sayəsində yer üzü abad olar.

Nizami Gəncəviyə görə, xeyirxahlıq ruhun elə qabiliyyəti və yaxud keyfiyyətidir ki, o, insanın xoşbəxtliyə nail olmasında mühüm rol oynayır. Şairin əsərlərində səxavətlilik, düzgünlük, səmimilik və lütfkarlıq kimi əxlaqi dəyərlər tərənnüm edilir. Bu dəyərlərin insanın özünənəzarətinin ölçüsü və şərtləri olduğu qeyd edilir.

Şair bildirir ki, əxlaqlı və ədəbli insan yeri gəldikdə başqasının uğrunda canını fəda etməyə belə hazırdır. Nizami Gəncəvi insanı ədəb-ərkan qaydalarına riayət etməyə çağıraraq yazır ki, o, yaxşını və yamanı qiymətləndirərkən ölçü həddini itirməməlidir. Qəm və sevinc insanın həyatında qoşa qanadlı ömürdür. Hər kəs özündən yaşlıların qayğısına qalmalıdır ki, ona da böyüklük adlı çələng çatsın.

Şairin fikrincə, insan dünyanın qiymətli varlığı, incisidir. O, ağıllı nəsihətlərə qulaq asmalıdır ki, çətinliklərlə üzləşməsin, hansısa çıxılmaz vəziyyətə düşdükdə belə ondan qurtula bilsin. Nizami Gəncəvi insanları dostluğa çağırır və onları kin-küdurətdən əl çəkməyə dəvət edir. O bildirir ki, dünya həmişə sülhdən xeyir görmüş, kindən isə ziyan çəkmişdir. Kinli insanın keçdiyi yollarda tikan göyərmişdir. İnsan öz işini elə qurmalıdır ki, başqalarında əbəs yerə kin yaratmasın. Nizami Gəncəvi yaxşı insanlarla dostluğu tərənnüm edərək yazır:

Cahanda yaxşılarla yaxşı bağlasan ülfət,
Bir cüt qanad taparsan, hər uçuşu səadət!

Dahi şairə görə, insan dürüst və dəqiq olmalıdır, çünki bu keyfiyyətlərin sayəsində hər bir iş uğurla nəticələnir. İnsan bu dünyada əməlləri ilə necə tanınıbsa, axirət aləmində da o cür tanınacaq. Nizami Gəncəvi insanın özündənrazılığına əxlaqi qüsur kimi yanaşır və bununla bağlı bildirir:

Özünü bəyənsə insan nə qədər,
Öz gözündən ona dəyər bəd nəzər.
Özündən razılar hər zaman sınar,
Ondan qurtarana uzun ömür var.

Nizami Gəncəvi elmə qüdrətli dəyər kimi baxır, alimin cəmiyyətdə yerinin uca olduğunu vurğulayır. Elmə və biliyə əhəmiyyət verən dövlətin güclü olduğunu qeyd edir. Şair bildirir ki, kainatın sirlərini öyrənməyin yolu elmi biliklərdən keçir və onlar mükəmməl, kamil olmalıdır:

Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək.

Dahi şair qeyd edir ki, bilikli adamlar uzaqgörən olar və insanın kamalı qiymətli sərvət kimi ona dayaqdır. Buna görə də:

Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr, daşdan da gövhər çıxardar.
Ancaq öyrənməyi ar bilən insan
Məhrumdur dünyada bilik almaqdan.

Yuxarıda qeyd edilənlərin ümumiləşdirilməsindən aydın olur ki, Nizami Gəncəvinin yaradıcılığında insan, onun mahiyyəti, cəmiyyətdə yeri və rolu, özünüdərketməsi, insan-Tanrı və insan-təbiət münasibətlərinə dini-fəlsəfi yanaşmalar xüsusi yer tutur. Dahi şair öz poemalarında insanın kainatın əşrəfi olduğunu və insanlıq mərtəbəsinin bütün yaradılanlardan üstünlüyünü elmi biliklər, gündəlik həyat hadisələri və tarixə əsaslanmaqla poetik şəkildə ifadə edir. Nizami Gəncəvinin insan varlığına dair dini-fəlsəfi görüşləri həm Şərq, həm də Qərb fəlsəfi fikrinə və poeziyasına mühüm təsir göstərmişdir.

**Vüqar Səlimov**
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsinin əməkdaşı,
fəlsəfə üzrə fəlsəfə doktoru

# GÖYÇAYDA "MULTİKULTURAL CƏMİYYƏTDƏ MƏZHƏBÇİLİK VƏ DİNİ TƏƏSSÜBKEŞLİK MEYİLLƏRİNİN YARATDIĞI PROBLEMLƏR" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB




Oktyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi və Göyçay şəhər Əbülfəzlil-Abbas məscidi dini icmasının təşkilatçılığı ilə Göyçay rayonunda "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda tədbir keçirilib.

Ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə əməl etməklə təşkil olunan seminarda rayonun idarə, müəssisə, təşkilatlarında çalışan qadınlar və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə açan Göyçay Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zivər Zeynalova mövzunun aktuallığından danışaraq bu sahədə həyata keçirilən layihələrin zəruriliyini vurğulayıb. O, dini maarifləndirmə işinin əhəmiyyəti və bu prosesdə qadınların rolunun vacibliyi barədə də məlumat verib.

DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında xalqımızın multikultural və tolerantlıq ənənələrinin qorunub saxlanılmasının, o cümlədən bu dəyərlərin gələcək nəsillərə ötürülməsinin vacibliyinə diqqət çəkib. Qeyd edib ki, gənclərin müasirlik, eləcə də milli dəyərlərə bağlılıq əsasında tərbiyəsi sağlam gələcək deməkdir. Onların tərbiyəsində, mənəvi aləmlərinin zənginləşməsində milli-mənəvi və tolerant dəyərlərimizin təbliği xüsusi önəm daşıyır. Zərərli dini meyillərin formalaşdırdığı təhdidlər və onların multikultural cəmiyyətə təsiri barədə də danışan şöbə müdiri mənfi təzahürlərə və məkrli təxribatlara qarşı aparılan maarifləndirmədə cəmiyyətimizin əsas sütunu olan qadınların da əhatə olunmasının önəminə toxunub. Həmçinin Elnarə Kərimova heç bir qüvvənin ölkəmizdə mövcud olan sarsılmaz milli həmrəylik və birliyi pozmaq iqtidarında olmadığını deyib.



Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva isə "Sosial media və dindarlıq" mövzusunda təqdimatla çıxış edib. Bildirib ki, günümüzdə müasir həyatla yanaşı dindarlığın ölçüləri də çox əhatəli və fərqli olub. Sosial media və bu kimi digər amillər cəmiyyətdəki dindarlıq anlayışlarına fərqli bir yanaşma gətirib. Texnologiyanın və ünsiyyət vasitələrinin sürətli inkişafı ilə yeni və daha təsirli olan sosial media dindarlığı aktuallıq kəsb etməyə başlayıb. Sosial mediada dini düşüncələrdən istifadə edilməsi populist dindarlığa zəmin yaradıb. Şöbə müdiri vurğulayıb ki, dini radikalizmin ən geniş yayılmış təbliğat platformalarından biri məhz sosial şəbəkələrdir. Bəzi qruplar sosial şəbəkələrdən istifadə edərək öz zərərli fikirlərini yaymaq, cəmiyyətdə insanlar arasında dini və məzhəb ayrı-seçkiliyi yaratmağa cəhd edirlər. Son zamanlar sosial şəbəkələrdə məzhəblərarası və konfessiyalararası münasibətlərə ciddi zərbə vuracaq təhrikedici çıxışçılar arasında qadınlara da rast gəlinidiyini qeyd edən şöbə müdiri təqdimatında həmin qrupların əsl niyyəti, hansı qüvvələrin əlində alətə çevrilməsi barədə geniş məlumat verərək tədbir iştirakçılarını diqqətli, ayıq-sayıq olmağa çağırıb.

Tədbirdə çıxış edən Aşağı Qaraməryəm kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Rəhilə Xəlilova, şəhər 4 nömrəli tam orta məktəbin müəllimi Firəngiz Məmmədyarova, Göyçay Qadın Resurs Mərkəzinin rəhbəri Vüsalə Məmmədova, Vətən müharibəsi şəhidi Vidadi Xəlilovun anası Nəsibə Xəlilova və Mərkəz məscidinin nümayəndəsi Natavan Abdullayeva maarifləndirmə tədbirlərinin cəmiyyətin bütün sahələrini əhatə etməsinin vacibliyi və gənc nəslin Vətənə sevgi, milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasının əhəmiyyəti barədə danışıblar.

Tədbir müzakirələrlə yekunlaşıb.

# "XXI ƏSRDƏN BAXIŞ: DİN VƏ QADIN" MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB




Oktyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "XXI əsrdən baxış: din və qadın" mövzusunda videokonfrans keçirilib.

Rayonun aktiv qadınları, təhsil işçiləri və gənclərin qatıldığı videokonfransı giriş sözü ilə açan Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova dövlətin əsas prioritet sahələrindən olan qadın siyasətinə toxunub. Bildirib ki, ölkəmizdə qadın problemləri daim dövlətin diqqətindədir. Buraya ölkəmizdə qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan imkanların daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirlər daxildir. T.Bayramova, həmçinin qadınların maarifləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin əhəmiyyətinə toxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova çıxışında dini maarifçilik işinin həyata keçirilməsi, xurafatla mübarizə, eyni zamanda cəmiyyətimizi narahat edən digər məsələlərin aradan qaldırılmasında qadınların fəal iştirakı və rolunun əhəmiyyətindən danışıb. Qadınların həyatda layiqli mövqe tutmasında onların təhsilinin əvəzolunmazlığını vurğulayan şöbə müdiri cəmiyyətin inkişaf prosesində tam iştirak etmək üçün lazım olan bilik, bacarıq və özünəinamı gücləndirməyin ən əhəmiyyətli vasitələrindən birinin təhsil olduğunu bildirib.

E.Kərimova qızların təhsili ilə bağlı dünyadakı vəziyyətə nəzər salarkən, onların təhsildən uzaq qalmasının səbəblərinə toxunub. Bildirib ki, təhsil və müxtəlif elmi mövzularda qadınların özlərini inkişaf etdirmə azadlığı İslam dininin çox əhəmiyyət verdiyi məsələlərdəndir. Şöbə müdiri çıxışını "bir qızın təhsili gələcəyə, dünyamızın gələcəyinə - inkişaf edən, dinc və davamlı bir dünyaya qoyulan sərmayədir" fikri ilə yekunlaşdırıb.

DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva çıxışında cəmiyyətimizdə son günlərdə qadınların ailədaxili zorakılığa və diskriminasiyaya məruz buraxılma hallarına diqqət çəkib. Erkən nikaha daxil olma, qadınlar arasında narkotik vasitələrin istifadə və satışına məcbur edilməsi hallarına rast gəlinməsi barədə də danışan şöbə müdiri vurğulayıb ki, ailədaxili problemlərin bir çoxu qızların erkən yaşda nikaha cəlb olunmasından qaynaqlanır. Cəhalətdən doğan erkən nikahın bəzi sterotiplər, təhsildən uzaqlaşma, ailələrin "qayda-qanun"ları, maddi çətinlik kimi amillərdən qaynaqlandığını deyib. Eyni zamanda dini bilgilərin düzgün mənbələrdən əldə edilməsinin vacibliyindən söz açan Y.Əliyeva bəzi qrupların öz məqsədlərinə nail olmaq üçün dini vasitəyə çevirməsinin ciddi fəsadlara yol açdığını deyib. Yalnız düzgün maarifləndirmə nəticəsində xurafatın kökün kəsməyin, bu qüvvələrin qarşısını almağın mümkün olacağını söyləyib.

DQİDK-nın əməkdaşı Aysel Abdullayeva isə "Maarifçilik yolunda Azərbaycan qadınları" mövzusundakı təqdimatında tarixdə ictimai fəallığı və sosial statusu ilə fərqlənən Azərbaycan qadınlarından bəhs edib. Bildirib ki, Azərbaycan qadını hər zaman zəriflik, incəlik, müqəddəslik rəmzi olub, eyni zamanda dərin düşüncəsi və müdrikliyi ilə həm dövlətçiliyin inkişafında, həm də müxtəlif sahələrin tərəqqisində önəmli rol oynayıb. Öncül Azərbaycan qadınlarından nümunələr gətirən natiq qadınların təhsili barədə statistik rəqəmlərə diqqət çəkib.

Videokonfrans müzakirələrlə yekunlaşıb.

# "MOLLANIN, RUHANİNİN, DİN XADİMİNİN PSİXİ SAĞLAMLIQLA BAĞLI ANLAYIŞI OLMALIDIR"

***Həkim-psixiatr Orxan Fərəclinin "Cəmiyyət və Din" qəzetinə müsahibəsi.***



**– Son zamanlar psixologiyaya marağın artdığını müşahidə edirik. Psixika nədir, psixi sağlam insan dedikdə nəyi nəzərdə tuturuq, ya da kimə psixi xəstə deyə bilərik?**

– Deməli, bu yaxınlarda 10 oktyabr Dünya Psixi Sağlamlıq Günü münasibətilə bir məqalə paylaşmışdım. Qəribədir ki, əvvəlkindən fərqli olaraq bu məqalə ilə bağlı insanlardan yaxşı mənada çox reaksiya gördüm. Məqalə "Psixoloji sağlamsınızmı?" adlanırdı, yəni psixoloji sağlamlıq nə deməkdir, psixoloji sağlam insan necə olur? Təəssüf ki, bu sualın, yəni "psixoloji sağlam insan kimdir?" sualının cavabı yoxdur. Psixiatriyadakı xəstəliklərdən, şizofreniyadan, nevrozdan, affektiv pozuntudan, qidalanma pozuntusundan sizə saatlarla danışa bilərəm. Lakin bunun norması necədir, bilinmir. Psixi normanın sərhədləri hədsiz genişdir. Bu, kültürə, yetişmə tərzinə, cinsə, yaşa görə dəyişir. Psixi sağlam insan çox dəyişkən, elastik sərhədləri olan bir məsələdir.

Ümumi deyim ki, hər kəsin problemi var. Hər kəsin ilişdiyi müəyyən məqamlar var. Bir misal çəkim. Diqqət yetirsək, tanıdığımız on adamdan altısında, yeddisində bu hal var: "Evdən çıxdım, qapını bağladımmı və ya işığı, qazı söndürdümmü?" Bilirsən ki, söndürmüsən, ancaq içindən bir səs deyir ki, qayıt, yoxla. Bu, normalda obsessiya adlandırdığımız bir simptomdur. Psixiatrik bir simptomdur. Amma hər bu simptomu olan adama xəstə deyə bilərikmi? Xeyr. Xəstə deyə bilmək üçün hər hansı simptom insanın həyat keyfiyyətinə təsir etməli və o kültür üçün anormal sayılmalıdır. Yaxud başqa bir nümunə: xərçəngdən danışarkən qulağımızı çəkib taxtaya vururuq ki, bizdən uzaq olsun. Bizim kültür üçün, etno-psixologiyamız üçün normaldır. İllərdir insanlar bunu edir. Lakin alman, ya isveç psixiatrına desəniz ki, xərçəngdən danışarkən qulağımı çəkib üç dəfə taxtaya vururam, o bunu psixiatrik problem kimi qəbul edəcək.

Bizim həkim yoldaşlardan biri danışır ki, xaricdən mühazirə oxumaq üçün bir professor gəlmişdi. Onunla görüşəndə dedi ki, axşam otelin pəncərəsindən üzbəüz evdə bir şizofrenin qaldığını görüb. Professordan həmin şəxsin niyə şizofren olduğu qənaətinə gəldiyini soruşanda bildirdi ki, həmin adam evin içində nəsə yandırıb gəzirmiş. Çox güman ki, həmin şəxs evində üzərlik yandırıbmış. Bu da bizim adət-ənənəmizə görə normal hal sayılır. Gördüyünüz kimi, psixoloji sağlamlıq anlayışı fərqli mədəniyyətlərdə, adət-ənənələrdə müxtəlif cür anlaşılır.

Yeri gəlmişkən, eyni şərtlər din üçün də keçərlidir. Məsələn, şizofreniyanın simptomlarından biri paranoyalar, sayıqlamalardır. İnsan fikirləşir ki, mənə cadu ediblər. Buna bizim kültürdə rast gəlinir. İnsanlar bu işlə məşğuldurlar, inanırlar ki, cadu var, cadu edib bəxtimi bağlayıblar. Eyni zamanda, beynəlxalq dərsliklər bunu bir simptom, paranoya kimi göstərir. Bir insan deyirsə ki, mənə cadu ediblər, artıq bu paranoyadır. Lakin bizim cəmiyyət üçün bu normal haldır. Biz buna rasionallıqdan qopduğu halda problem kimi baxırıq.

**– Belə çıxır ki, insanın baş verən hadisələrdən özünü, şəraiti deyil, kənar qüvvələri məsul tutması, falçıya müraciət etməsi normal haldır? Bu ziyansızdırmı?**

– Təbii ki, belə bir inancın ziyanı olur. Heç olmayan bir şeyə görə həyat tərzin dəyişir, kimlərləsə münasibətlərin pozulur. Məsələn, deyirlər ki, baş hərfi "R" ilə başlayan biri sənin paxıllığını çəkir. Sən də başlayırsan həmin insanlarla münasibətini korlamağa. Bu paranoya deyil, lakin münasibətlərə ciddi şəkildə təsir göstərir.

**– Caduya inanmaq simptom olmasa da, gələcəkdə yaranacaq simptomların birbaşa səbəbi deyilmi?**

– Bəli, bir mərhələdən sonra caduya inanan adamda rasionallıqdan uzaqlaşmaq, bütün həyatını bunun üzərində qurmaq kimi hal yarana bilər. Ancaq biz heç kəsə deyə bilmərik ki, o, caduya inanırsa, şizofrendir.

Lakin özünün altıncı hisslərinin olduğuna inanan şizotipal şəxsiyyət var. Məsələn, inanıram ki, altıncı hissim var, əvvəlcədən prosesləri görə bilirəm, gələcəklə bağlı məlumatları xəbər verə bilirəm, bu mənə yuxu vasitəsilə gəlir. Artıq bu paranoya səviyyəsində deyil, sadəcə hissiyyat səviyyəsindədir. Mən düşünürəm ki, belə bir hissiyyatım var və illərdir buna inanıram. Bu, artıq şizotipal şəxsiyyətdir.

Yəni kiminsə nəyəsə inanması nazoloji vahid deyil, onun xəstə olması mənasını vermir. Kimsə deyirsə ki, xüsusi cihazlar vasitəsilə mənim beynimə şüa göndərirlər, beynimdən fikrimi çəkirlər, yaxud cadunu xüsusi elektrodalğalar vasitəsilə, beyin gücü ilə ötürürlər, yəni həmin şəxs rasionallıqdan uzaqlaşırsa, demək, bu, artıq problemdir.

**– Ənənədən qaynaqlanan metodlar insanların ruh halı üçün faydalı vasitə ola bilərmi?**

– Psixi sağlamlıqla bağlı təlimatlarda, təməl kitablarımızda alternativ metodlar yoxdur. Biz xəstəliklə bağlı protokola uyğun müalicə yazırıq. Elə pasiyent olur ki, deyir: "Çıldağa getdim və bu, mənə xeyli yaxşı təsir göstərdi". Çıldaqda ona "dərmanını dayandır", deyilmirsə, olsun. Bu, illərin ənənəsidir. Ancaq bu vasitələr sübuta əsaslanmış təbabət prinsiplərinə zidd gəlməyə başlayarsa, o zaman problem yaranır. Elə məsələlər var ki, müdaxilə edirik. Məsələn, "cinçıxarma" ilə bağlı mənim konkret mövqeyim var: bu, nə medikal üsuldur, nə də alternativ təbabət. Şabranda "cinçıxarma" adı ilə xəstəni qamçılayıb öldürdüklərini, yəqin ki, xatırlayırsınız.

Lakin kültürdə oturuşmuş elə inanclar var ki, insanın onlara ümid bəsləməsi problem yaratmır.

**– Dindar insan psixoloji durumu ilə bağlı bəzən həkimə deyil, dini ibadət yerinə üz tutur, imam və ya molladan məsləhət alır. Buna münasibətiniz? Sizcə, mollaların narahatlıqları ilə bağlı onlara müraciət edən insanlara edəcəyi ən yaxşı kömək nə ola bilər?**

– Universitetdə tələbələrə dərs deyərkən bəzən zarafatla deyirəm ki, ruhi problemli, psixi problemli insanın həkimə gələnə qədər keçdiyi bir yol var. Bu yol nədən ibarətdir? Birinci, əksər hallarda bu, məhz mollalar olur, sonra ekstrasenslər. Ondan sonra terapevtlər, daha sonra nevropatoloqlar, psixoloqlar, lap axırda psixiatrların yanına gəlirlər. Adətən, belə olur. Amma kimsə bu zənciri qırıb ortasından, kimsə lap əvvəlindən, ya axırından başlaya bilir. Mən mollanın, ruhaninin, din xadiminin psixi sağlamlıqla bağlı anlayışının olmasının tərəfdarıyam. İnsanlar onlara inanıb müraciət edirlər. Ən azından molla da gərək hazırlıqlı olsun, ona müraciət edilən zaman çaşıb qalmasın, tibbi problemin mövcudluğunu başa düşsün. Necə ki, mollanın yanına kimsə şəkər və ya təzyiq problemi ilə gəlsə, yəqin ki, molla onu sağaltmağa cəhd göstərməyəcək. Eləcə də ruhi problemlər də bir xəstəlikdir. Necə ki, şəkərdə insulin pozulur, depressiyada da, təşvişdə də serotonin pozulur. Bu da bioloji prosesdir və bunun da bir mütəxəssisi var. Yəni insanın həyatında baş verən dəyişikliyi cinlə, dua ilə, fövqəltəbii güclərlə izah etməyə çalışmaq doğru deyil. Molla ona müraciət edən insana desə ki, həkimə müraciət et, başa salsa ki, bu, tibbi problemdir, şəkər, təzyiq, qastrit və s. kimi xəstəlikdir, necə də gözəl olardı. Yəni, məsləhətim odur ki, din xadimlərinin xəstəliklər haqqında minimal bilikləri olsun. "İçinə cin girən adam"ın, əslində, dissosiativ konversion, hətta şizofreniyanın psixozu ola biləcəyini bilsin, əlini çox yuyan adamın obsessiv-kompulsiv pozuntusu ola biləcəyini, yəni ən azından minimal səviyyədə bir simptom, bir xəstəlik səviyyəsində məlumatlı olsun. Yəni bunun başqa bir yolu yoxdur. Təcrübədə belə bir pasiyentim olub. Mənə deyib ki, ekstrasens ona həkimə getməyi məsləhət görüb.

İnsanlar din xadiminin yanına onlara səmimi şəkildə inanaraq gedir. Din xadimləri də gərək bu cür insanları düzgün istiqamətləndirsinlər.

**– "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "Hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ var. Şəxsin dini etiqadını ifadə etməsinə, ibadətlərdə, dini ayin və mərasimlərdə iştirak etməsinə və ya dini öyrənməsinə hər hansı maneə törədilə bilməz. Heç kəs öz dini etiqadını ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Dini etiqadın və dini həyat tərzinin zor tətbiq etməklə və ya zor tətbiq ediləcəyi ilə hədələməklə, habelə irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaratmaq məqsədi ilə təbliğinə yol verilmir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır". Bəs siz həkim kimi bu haqda nə deyə bilərsiniz? Hansı hallarda şəxsin dini inancını yayması başqalarının psixoloji vəziyyətinə mənfi təsir göstərə bilər?**

– Bu məsələ qanunda hərtərəfli şəkildə əksini tapıb. Mən bu tip məsələlərin müəyyən nəzarətdə olmasının tərəfdarıyam. Həddi, əndazəni aşmamaq şərtilə müəyyən çərçivələr olmalıdır. Xüsusilə, uşaqlarla bağlı diqqətli olmalıyıq. Məsələn, uşağın gözünün qabağında qurban kəsmək onun psixikasına mənfi təsir göstərə bilər. Eləcə də bəzi dini mərasimlərdə iştirakda uşağın yaşı nəzərə alınmalıdır. Şəbih məclisləri uşağa xurafat şəklində göstərilməmelidir. Uşaq orada gördüklərini həzm etmək durumunda olmalıdır. Uşaq dini anlayışı, mücərrəd, abstrakt anlayışlarını başa düşəndən sonra özü dini mərasimdə iştirak etməyə qərar verə biləcək səviyyəyə çatmalıdır. Onun əvəzinə qərar verilməməlidir. Uşaq bir toplumda yetişir. İstər-istəməz yetişdiyi toplumun şərtlərini mənimsəyəcək. Bu prosesə əlavə təsirlər, kənar müdaxilələr olmamalıdır.

**– Uşaqlardan söz düşmüşkən, orta məktəblərə din haqqında ümumi biliklərin verilməsinə dair fikirləriniz?**

– Məktəblərdə din haqqında ümumi biliklərin verilməsinin tərəfdarıyam. Uşaqlara elmi biliklərin verilməsi ilə yanaşı, dini dünyagörüşlə bağlı məlumatları da təqdim etmək lazımdır. Çünki bu qaçınılmaz prosesdir. Uşağa din haqqında ümumi bilikləri doğru olmayan mənbədən də əldə edə bilər. Uşaq dini dünyagörüşü əsaslı mənbədən almalıdır. Dərsliklərin hazırlanmasında ilahiyyatçı, filosof, psixoloqlar birgə, professional şəkildə iştirak etməlidir. Uşaqların yaş kateqoriyası mütləq nəzərə alınmalıdır.

**– Sonda sualım dünyəvilik və dindarlıqla bağlıdır. Dünyəvi və dindar insanın psixoloji durumunda hansı fərqlər var? Dünyəvi insan psixoloji sağlam qala bilmək üçün mənəvi qidasını haradan ala bilər?**

– Din, bəzi fəlsəfi cərəyanların özü belə ümumi mənada ruhi sabitlik yarada bilir. Misal üçün, məsələyə ekzistensialist baxışla baxın. Ekzistensialist nəzəriyyəyə görə, biz niyə yaşayırıq, onsuz da ölüb gedəcəyik, niyə bu uşağı böyüdürük, niyə bu qədər əziyyət çəkirik. Bura qədər ekzistensialdır. Bunun özündən iki yol ayrılır.

davamı səh. 12

# "MOLLANIN, RUHANİNİN, DİN XADİMİNİN PSİXİ SAĞLAMLIQLA BAĞLI ANLAYIŞI OLMALIDIR"

## *Həkim-psixiatr Orxan Fərəclinin "Cəmiyyət və Din" qəzetinə müsahibəsi.*

əvvəli səh. 11

Dinlər deyir ki, öləcəyik, amma başqa dünya da var. Orada davam edəcəyik. Sadəcə dünyamı dəyişəcəyəm. İnsan buna sidq ürəkdən, səmimi inanır. Ona görə də dindar insanın ruh halı nisbətdə sabitdir. Bu o demək deyil ki, dindar insan psixi xəstəliyə yoluxmur, nevrozdan, təşviş pozuntusundan əziyyət çəkmir. Sadəcə ruhi sabitlik baxımından daha üstündür.

Dünyəvi insan üçün, yaxud ateist biri üçün bu daha çətindir. Xüsusilə, Şərq insanı üçün. İnsan o qədər mütaliəli olmalıdır ki, gəldiyi inancın köklərinin haralara gedib çıxa biləcəyinin fərqinə varsın. Ziddiyyət olmamalıdır, dəb üçün olmamalıdır. Məsələn, dilində deyir ateistəm, eyni zamanda qorxur. Rahatlıq tapa bilmir, daxili ziddiyyət yaşayır. Qarşımızda belə bir insan ola bilər ki, o, sözün əsl mənasında, bu söhbətin məğzini, qayəsini bilir. Ateizmin nə olduğunu bilir. Həmin insanların artıq tutunacağı dəyərlər var. Ölüm, dünya üzərində danışmaqdan əlavə onun vicdan anlayışı, cəsarət, insanpərvərlik duyğuları var. Məsələn, xəstələnəndə dua etmək əvəzinə, həkimə gedir. Başa düşür ki, çoxlu dua edə bilərsən, amma bu, qızdırmanı aşağı salmayacaq. Müvafiq təyinatlı dərman qəbul etsən, qızdırman düşəcək. Dindar isə deyə bilər ki, Allah istəməsəydi, istəyirsən 5 dərman iç, düzəlməyəcək. Din ruhi sabitlik yaradır, amma bu o demək deyil ki, ateistlər və yaxud dünyəvi insanlar darmadağın, ya psixoloji natamamlıq içərisindədirlər. Din ruhi sabitlik yaratmaq baxımından daha əlçatandır, dünyəvi insan isə daxili ziddiyyətini sakitləşdirmək üçün öz üzərində çalışmalıdır, ekstra səy göstərməlidir.

Müsahibəni apardı: **Günel Yusifi**

# AZƏRBAYCANÇILIQ MƏNƏVİ SƏRVƏTİMİZDİR

Azərbaycan tarixən müxtəlif etnosların, dinlərin və məzhəblərin, bir sözlə, müxtəlif mədəniyyətlərin nümayəndələrinin sülh, həmrəylik və qarşılıqlı hörmət şəraitində yaşadığı məkan olub. Tarixin heç bir mərhələsində bu torpaqlarda milli və dini zəmində hər hansı narahatlıq yaşanmayıb. Tarixi ənənələri davam etdirən Azərbaycan xalqı bu gün də harmoniya mühitini qoruyub saxlayır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən çox böyük uzaqgörənliklə qoyulmuş Azərbaycançılıq məfkurəsi bu gün multikulturalizmin hökm sürdüyü Azərbaycanda əsas ideoji sütun hesab edilir. 2001-ci ildə Dünya Azərbaycanlılarının Birinci qurultayında Heydər Əliyev Azərbaycançılıq ideologiyası ilə bağlı fikirlərini həm ölkə vətəndaşlarına, həm də bütün dünya azərbaycanlılarına çatdıraraq gələcəyə istiqamətlənmiş proqram xarakterli çıxış etmişdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Zaman keçdikcə Azərbaycançılıq ideologiyasının əhəmiyyəti ilə bağlı xalqımızda daha dolğun təsəvvürlər yaranıb. Bu gün hər bir azərbaycanlı yaxşı bilir ki, Azərbaycanın bu günü və sabahı məhz bu ideologiya ətrafında sıx birləşməkdən keçir.

Hazırda bu ideoloji xətt cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı 2011-ci ildə keçirilən Dünya Azərbaycanlılarının Üçüncü qurultayında çıxış edərək ideoloji işlə bağlı dövlət siyasətini bir daha ifadə etmişdi: "Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi!"

Dövlətimizin əsas siyasi-ideoloji xəttini təşkil edən Azərbaycançılıq ideologiyası istiqamətində görülən tədbirlərin nəticəsini müxtəlif hadisələrdə aydın şəkildə görmək olar. Buna parlaq nümunə kimi, 2020-ci ilin sentyabrın 27-dən başlayan və 44 gün ərzində tarixi torpaqlarımızın düşmən tapdağından azad edilməsi ilə nəticələnən Vətən Müharibəsini göstərmək mümkündür. Vətən Müharibəsində ölkəmizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələri ön cəbhədə, arxa cəbhədə və informasiya cəbhəsində Azərbaycanın haqq işi uğrunda aparılan müqəddəs savaşda sinələrini sipər etdilər, həm də müharibə dönəmində ölkəmizdə milli-etnik və dini zəmində narazılıq yaratmağa çalışan xaricdən idarə edilən qüvvələrə layiqli yerlərini göstərdilər. Bu baxımdan Vətən Müharibəsini həm də Azərbaycançılıq ideologiyasının, multikultural dəyərlərin qələbəsi kimi qiymətləndirmək lazımdır. Göründüyü kimi, artıq Azərbaycan cəmiyyətində yad-ideoloji qüvvələrə qarşı siyasi-ideoloji və mənəvi immunitet formalaşıb. Bu ideoloji immuniteti qoruyub saxlamaq və daha da möhkəmləndirmək qarşımızda duran əsas vəzifəmizdir. Bu vəzifənin layiqincə yerinə yetirilməsi, əsasən, təhsildən keçir. Məlumdur ki, ölkəmizdə dövlət təhsil sisteminin əsas məqsədi milli və ümumbəşəri dəyərlərə sahib şəxsiyyət hazırlamaqdır. Bu baxımdan formalaşmaqda olan yeniyetmə və gənclər arasında fəal təbliğat işi aparılmaqdadır. Xalqımızın zəngin milli-mənəvi dəyərlər sistemi, onun ayrılmaz və əsas tərkib hissəsi olan Azərbaycançılıq ideologiyası aparılan təbliğatın əsasını təşkil edir.

İnanırıq ki, Vətənimiz Azərbaycan bundan sonra da bu sağlam ideoloji əsaslar üzərində inkişaf edərək qarşıya qoyulan hədəfləri inamla yerinə yetirəcək, müstəqilliyimiz əbədi, sarsılmaz və dönməz olacaqdır!

**Emin HƏMİDLİ,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı

# DƏNİZKƏNARI MİLLİ PARKDA "ZƏFƏR" YARMARKASI KEÇİRİLİR: ƏLDƏ OLUNAN GƏLİR "YAŞAT" FONDUNA İANƏ EDİLƏCƏK




"Zəfər yarmarkası"ndan əldə olunan gəlir şəhid ailələri və müharibə əlillərinin təminatı üçün "YAŞAT" Fonduna ianə ediləcək".

Bunu "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov Zəfər yarmarkasında jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, yarmarakada müxtəlif şirkətlər öz məhsullarını təqdim edirlər: "Həmçinin Müdafiə Nazirliyi tərəfindən kiçik olsa da, hərbi şəhərcik yaradılıb. Məhz burada olan silah və texnikalar 44 günlük Vətən müharibəsində qəhrəman əsgərlərimiz tərəfindən ərazilərimizin işğaldan azad olunmasında istifadə edilən texnikalardır".

E.Hüseynov bildirib ki, "Zəfər yarmarkası" 12 gün davam edəcək: "Havanın yağışlı, çiskinli olmasına baxmayaraq paytaxt sakinlərini və qonaqları geniş və zəngin proqramı olan yarmarkada iştiraka dəvət edirik".

Qeyd edək ki, Dənizkənarı Milli Parkda təşkil edilən yarmarka oktyabrın 29-dan noyabrın 9-dək davam edəcək. Yarmarkanın təşkilatçıları "YAŞAT" Fondu, Müdafiə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Dənizkənarı Bulvar İdarəsi və Azərbaycan Peyntbol Federasiyasıdır.

# DİNİ LİDERLƏRİN VII QURULTAYININ TARİXİ AÇIQLANIB

Dünya və ənənəvi dinlər liderlərinin VII qurultayı 2022-ci ilin 14-15 sentyabrında Nur-Sultan şəhərində keçiriləcək.

Bunu Qazaxıstan Senatının sədri Mövlan Əşimbayev qurultay katibliyinin XIX iclasında bildirib.

Qeyd edək ki, qurultay Nursultan Nazarbayevin təşəbbüsü ilə 2003-cü ildən etibarən Qazaxıstanın paytaxtında üç ildən bir keçirilib, 2021-ci ildə isə pandemiya ilə bağlı təxirə salınıb.

Qazaxıstan Senatının mətbuat xidmətindən verilən məlumata görə, qarşıdan gələn forumun dünya və ənənəvi konfessiya liderlərinin postpandemiya dövründə bəşəriyyətin sosial və mənəvi inkişafındakı roluna həsr olunması planlaşdırılır.

# BAKI YEPARXİYASINDA GÜNAHSIZ YERƏ QƏTLƏ YETİRİLƏN PRAVOSLAV XRİSTİANLARIN ANIM GÜNÜ TƏSİS EDİLİB

Oktyabrın 24-də Bakı və Azərbaycan yeparxiyasının pravoslav dini-mədəniyyət mərkəzində Bakı və Azərbaycan Yeparxiyasına müvəqqəti olaraq rəhbərlik edən Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilaktın sədrliyi ilə yeparxiya ruhanilərinin toplantısı keçirilib.



Müqəddəs Sinodun sentyabrın 23-24-də qəbul edilmiş (jurnal № 70) qərarını yerinə yetirmək üçün keçirilən iclasda Bakı və Azərbaycan yeparxiyası daxilində 2 noyabr tarixinin günahsız yerə qətlə yetirilən və ya həbs olunan bütün pravoslav xristianların anım günü kimi qeyd olunması qərara alınıb. Həmin gün Bakı presviteri müqəddəs İohanın xatirəsi anılır.

Bu il anım mərasimi oktyabrın 31-də keçiriləcək.

İclasda yeparxiya həyatı ilə bağlı cari məsələlər də müzakirə olunub.

## İƏT-İN BAŞ KATİBİ TƏŞKİLATA ÜZV ÖLKƏLƏRİ İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI BİRGƏ TƏDBİRLƏR GÖRMƏYƏ ÇAĞIRIB

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif Əl-Osaymin təşkilata üzv ölkələri iqlim dəyişikliyinin fəsadlarına qarşı birgə tədbirlər görməyə çağırıb.

Ər-Riyadda keçirilən Yaxın Şərq Yaşıl Təşəbbüsü (MGI) Sammitində çıxış edən İƏT-in Baş katibi iqlim dəyişikliyinin quraqlıq, yaşıl sahələrin azalması, karbon emissiyası və torpaqların eroziyası kimi ağır fəsadlarının qarşısını almaq üçün birgə layihə və proqramların həyata keçirilməsinə ehtiyac olduğunu vurğulayıb. O bildirib: "İƏT-ə üzv ölkələr, həmçinin beynəlxalq və regional təşkilatlar bu təşəbbüsü dəstəkləməlidir. Eyni zamanda, iqlim dəyişikliyi nəticəsində ildən-ilə artan təbii fəlakətlərin iqtisadiyyata və əhalinin sosial vəziyyətinə vurduğu ziyanlar daha qətiyyətli addımlar atılmasını tələb edir".

Sözügedən təşəbbüsün İƏT-in Nizamnaməsinə də uyğun olduğunu diqqətə çatdıran Əl-Osaymin qeyd edib ki, ətraf mühitin qorunması gələcək nəsillərin normal şəraitdə yaşaması baxımından da əhəmiyyətlidir. Onun sözlərinə görə, "yaşıl iqtisadiyyat" istiqamətində səylər üzv ölkələrin davamlı inkişafını, iqtisadi tərəqqisini təmin edən əsas amillərdən biridir. "Yaşıl təşəbbüs mövzusu İslam Sammitinin və Xarici İşlər Nazirləri Şurasının iclaslarının gündəliyinə də daxil ediləcək. İslam aləmi qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə öz töhfəsini verməli, təmiz enerji mənbələrindən daha çox istifadə olunmasını təmin etməlidir. Bu məsələlər İƏT-in 2015-2025-ci illər üçün onillik Fəaliyyət Proqramında da öz əksini tapıb. Sadaladığım hədəflərə nail olmaq məqsədilə İslam İnkişaf Bankı, Elmi və Texnoloji Əməkdaşlıq üzrə Daimi Komissiyanın (COMSTECH) və ICESCO-nun imkanlarından daha çox istifadə etməliyik", - deyə Baş katib çıxışının sonunda vurğulayıb.

## KÜVEYTDƏ QADINLARIN ORDUDA XİDMƏT ETMƏSİNƏ İCAZƏ VERİLİB



Səudiyyə Ərəbistanından sonra Küveytdə də qadınların ordu sıralarında xidmət etməsinə icazə verilib. Artıq bu ölkədə zərif cinsin nümayəndələri zabit qismində hərbi əməliyyatlarda da iştirak edəcəklər.

Küveytin müdafiə naziri Həməd Cabir əl-Əli əl-Sabah silahlı qüvvələrin qapısının qadınlar üçün açıq olduğunu bildirib: "Küveytli qadınların öz qardaşları ilə çiyin-çiyinə hərbi xidmət keçməsinin vaxtı çatıb. Mən zərif cinsin nümayəndələrinin gücünə və hərbi təlimlərdə kişilərlə yanaşı layiqli iştirak edəcəklərinə inanıram".

Qeyd edək ki, Küveytdə qadınlara 2005-ci ildə seçkilərdə iştirak etmək hüququ verilib. Onlar hazırda hökumətdə və parlamentdə təmsil olunurlar. 2008-ci ildə isə onların polis orqanlarında xidmət etməsinə icazə verilib.

## SMARTFONLAR UŞAQLARIN GÖZLƏRİNƏ ZİYAN VURUR



Britaniyalı oftalmoloqların "The Lancet Digital Health" jurnalında dərc olunmuş məqaləsində xəbərdarlıq edilir ki, smartfon və kompüter ekranı qarşısında hədsiz çox vaxt keçirən uşaqların yaxındangörməyə məruz qalma riski 80 faiz artır.

Həmin mütəxəssislər elektron qurğuların uşaq və gənclərin görmə qabiliyyətinə təsirinə həsr olunmuş 3 mindən çox elmi işi təhlil ediblər. Məlum olub ki, uşaq və gənclərin elektron qurğularla keçirdikləri vaxt ilə görmə üçün risk arasında aşkar asılılıq var. Belə ki, smartfonla gündə 3 saatdan çox işləyən uşaqların yaxındangörmə riski bunun əvəzinə başqa işlərlə məşğul olan uşaqlarla müqayisədə 3 dəfə artır.

Smartfonlardan fəal istifadə miopiya xəstəliyinə tutulma riskini orta hesabla 30 faiz, kompüterlərdən fəal istifadə isə həmin riski 80 faizə qədər artırır.

Tədqiqatçılar xəbərdarlıq edirlər ki, 2050-ci ilə qədər Yer kürəsi əhalisinin ən azı yarısı yaxındangörmədən əziyyət çəkəcək. Bu təhlükədən sovuşmaq üçün alimlər insanların, xüsusən orqanizmi hələ formalaşmaqda olan uşaqların vaxtını keçirməyin başqa üsullarını axtarmağı tövsiyə edirlər.

## YUNANISTANDA DƏRMANLARI ÇATDIRMAQ ÜÇÜN DRONLARDAN İSTİFADƏ EDİLİR



Yunanıstanda əlçatmaz bölgələrə dərman vasitələri göndərmək üçün dronlardan istifadə etməyə başlanılıb. Test uçuşu zamanı pilotsuz uçuş aparatı Trikala şəhərindən yüz kilometr aralıda yerləşən Leptokaria kəndindəki aptekə dərmanlar çatdırıb.

Dron aparatı bu cür missiyanı yerinə yetirmək üçün xüsusi olaraq hazırlanıb. Aparat baqaj bölməsi, həmçinin temperatur və rütubətə nəzarət sistemi ilə təchiz olunub. Belə bir pilotsuz uçuş aparatı 45 dəqiqə uçuşda ola bilər və üç min metr yüksəkliyə qalxmaq imkanına malikdir.

Qeyd edək ki, getdikcə Avropada uçuş aparatlarından daha çox istifadə olunmağa başlanılır. İspaniyanın Valensiya çimərliklərində üzənlərin təhlükəsizliyini izləməyə başlayıblar. Litvada isə bu cür cihazlar gəmilərin dəniz suyunu necə çirkləndirdiyini izləyir.

## VATİKANDA DOSTOYEVSKİNİN 200 İLLİYİ QEYD OLUNUB



Oktyabrın 9-da Vatikanda dünya ədəbiyyatının ən böyük yazıçılarından sayılan Fyodor Dostoyevskinin anadan olmasının 200 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilib.

Görüşdə Rusiyanın Vatikandakı səfiri Aleksandr Avdeyev, Vatikanın dövlət katibi, kardinal Pietro Parolin iştirak ediblər. İlk dəfədir bu səviyyədə keçirilən tədbirdə Rusiya ilə Vatikan arasındakı mədəni əlaqələrin vacibliyi vurğulanıb. Vatikanın tanınmış ilahiyyatçıları öz çıxışlarında Papa Fransiskin Dostoyevskinin yaradıcılığına necə yanaşdığını, onun dini tezislərini paylaşdığını və ondan sitatlar gətirdiyini xatırladıblar.

Tədbirdə həmçinin filosof və publisist Vladimir Solovyovun (1853-1900) Dostoyevski haqqında 1881-1883-cü illərdə yazdığı üç nitqinin italyan dilinə tərcüməsi təqdim olunub.

## "İSLAM İNCƏSƏNƏTİ: KEÇMİŞDƏN BU GÜNƏ" SƏRGİSİ KEÇİRİLƏCƏK




İslam mədəniyyətini və incəsənətini daha yaxşı başa düşmək üçün Luvr muzeyi və Milli Muzeylər İttifaqı "Grand Palais" Fransanın 18 şəhərində 18 sərgidən ibarət sərgi kompleksi təşkil edəcək.

Luvrun İslam incəsənəti departamenti 2012-ci ildə fəaliyyətə başladığı gündən tamaşaçılara İspaniyadan Hindistana, VII əsrdən XIX əsrə qədər İslam mədəniyyəti ilə tanış olmağı təklif edir. Luvrun saytında sərgi kompleksi barədə deyilir: "İncəsənət və tarixin şahidi olan sənət əsərləri on üç əsr ərzində İslam dünyasının mədəni və dini müxtəlifliyini nümayiş etdirir. Onlar ideyaların və insanların dövriyyəsini, eləcə də fransız irsinin plüralizmini əks etdirir".

Məhz bu nöqteyi-nəzərdən Fransa Mədəniyyət Nazirliyi Luvr və Milli Muzeylər İttifaqından 18 şəhərdə iddialı bir layihə təşkil etməyi istəyib. Sərgilərin hər biri üçün Luvrdakı İslam incəsənəti departamentindən, eləcə də digər milli və regional kolleksiyalardan həm tarixi, həm də müasir 10 əsər seçilib.

2021-ci il noyabrın 20-dən 2022-ci il martın 27-nə kimi davam edəcək sərgi gənc nəsil və geniş auditoriya üçün nəzərdə tutulub.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini oktyabr ayı ərzində də davam etdirmişdir. Maarifləndirmə tədbirləri pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən əsasən videokonfrans formatında, bəzi bölgələrdə isə zəruri qaydalara əməl olunmaqla ənənəvi qaydada təşkil olunmuşdur.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**5 oktyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda;



**6 oktyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsuda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin (TŞ) birgə təşkilatçılığı ilə Lənkəran şəhəri 2 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər TŞ-nin birgə təşkilatçılığı ilə Lənkəran şəhəri Həzi Aslanov adına 3 saylı tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**7 oktyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzi və şəhər "Cümə məscidi" dini icmasının birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və M.Ə.Sabir adına Göyçay rayonu Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Dini maarifləndirmədə dini ədəbiyyatın yeri və rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Vətənpərvərlik, nümunəsi: şəhidlik və qazilik" mövzusunda;

**8 oktyabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhərində "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki önəmi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Tovuz RİH, Gənclər və İdman İdarəsi, TŞ-nin birgə təşkilatçılığı ilə Tovuz rayon Heydər Əliyev mərkəzində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**11 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və rayon TŞ-nin birgə təşkilatçılığı ilə Masallı şəhər Sakit Tağıyev adına 4 saylı tam orta məktəbində "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki şəhərində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə Göyçay şəhər "Mərkəz" məscidində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda;



**12 oktyabr** – DQİDK, Oğuz rayonu Gənclər və İdman İdarəsi və rayon TŞ-nin birgə təşkilatçılığı ilə Oğuz Tədris Mərkəzində "Yeniyetmə və gəncləri dini radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir rayon Heydər Əliyev Mərkəzi, rayon Gənclər və İdman İdarəsi və QMİ-nin səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Tarixi dini abidələrimizə qarşı erməni vandalizmi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində qadınların rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və rayon Gənclər və İnkişaf Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə S.Vurğun adına 1 nömrəli tam orta məktəbdə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**13 oktyabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz rayon Gənclər və İdman İdarəsi, rayon TŞ və YAP Oğuz rayon təşkilatının birgə təşkilatçılığı ilə "Vətənpərvərlik: Milli-mənəvi dəyər kimi" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və YAP Yevlax Rayon Təşkilatının birgə təşkilatçılığı ilə DQİDK tərəfindən çəkilmiş, Vətən müharibəsinə həsr olunmuş "Vətən naminə" sənədli filminin nümayişi; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala İslam Kollecinin birgə təşkilatçılığı ilə "Vətənpərvərlik nümunəsi: qazilik və şəhidlik" mövzusunda;



**14 oktyabr** – Quba rayonu Zizik kənd məscidində "Vətənpərvərlik nümunəsi: qazilik və şəhidlik" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik RİH və rayon TŞ-nin birgə təşkilatçılığı ilə 3 saylı tam orta məktəbdə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda;

**15 oktyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab şəhər Peşə Liseyinin birgə təşkilatçılığı ilə "Gələcəyimizi düşünək, narkomaniyaya yox deyək" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Azərbaycanın dövlət müstəqilliyinin bərpası - 30: dəyərlərimizin təminatı" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Goranboy RİH və Goranboy şəhəri Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası - 30: dəyərlərimizin təminatı" mövzusunda; Oğuz rayonunda 18 Oktyabr- Müstəqilliyin Bərpası Gününə həsr olunmuş; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar rayon Polis Şöbəsi və Ucar rayon Gənclər Evinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya qarşı birgə mübarizə" mövzusunda;

**16 oktyabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağdam rayon Heydər Əliyev Mərkəzi və Ağdam rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət müstəqilliyinin bərpası - 30: dəyərlərimizin təminatı" mövzusunda;

**18 oktyabr** - DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon Gənclər və İnkişaf Karyera Mərkəzi, Saatlı Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət müstəqilliyinin bərpası - 30: dəyərlərimizin təminatı" mövzusunda;

**19 oktyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Xaçmaz RİH və Xaçmaz şəhəri "Təzə şəhər" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət müstəqilliyinin bərpası - 30: dəyərlərimizin təminatı" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Milli şüur və vətənpərvərliyin timsalı" mövzusunda;



**20 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə rayon Mərkəzləşmiş Kitabxana Sistemində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu rayonu Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Narkomaniya və onun yaratdığı fəsadlar" mövzusunda;

**21 oktyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı rayon Gənclər və İdman İdarəsi və rayon TŞ-nin birgə təşkilatçılığı ilə Vəli Məmmədov adına Yardımlı şəhəri 2 saylı tam orta məktəbində "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunda "Uşaq hüquqlarına əməl edək və erkən nikaha "Yox" deyək" mövzusunda;

**22 oktyabr** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Tarixi - dini abidələrimizə qarşı erməni vandalizmi" mövzusunda;

**25 oktyabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda;

**26 oktyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in birgə təşkilatçılığı ilə "Vətənpərvərlik nümunəsi: şəhidlik və qazilik" mövzusunda;

**27 oktyabr** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonunda "Vətənpərvərlik nümunəsi: şəhidlik və qazilik" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Biləsuvar rayonunda "Zəfərə aparan yol: Milli və dini həmrəylik" mövzusunda;

davamı səh. 15

# QISA-QISA

əvvəli səh. 14



**28 oktyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH-in və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən şəhəri Nəsimi adına 2 saylı tam orta məktəbində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Qusar şəhəri "Mustafa Kazdal" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər RİH-in birgə təşkilatçılığı ilə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda 44 günlük Vətən müharibəsi şəhidlərinə həsr olunmuş

**29 oktyabrın** –DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə milli müstəqilliyimizin qorunub saxlanılmasında və dəyərlərimizin təminatında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolundan, eləcə də Prezident İlham Əliyevin apardığı uğurlu siyasətdən bəhs olunub. Ölkəmizdə dini maarifləndirmə siyasətinin yüksək səviyyədə icra edildiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, dini maarifləndirmənin inkişafında dini ədəbiyyatın müstəsna rolu vardır. Dövlət Komitəsi, eləcə də tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə mütəmadi olaraq milli-mənəvi, dini dəyərlərimizi təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlanır. Bu cür kitabların nəşr olunmasında əsas məqsəd vətəndaşlarımızın sağlam dini ədəbiyyatla təmin edilməsidir.

Çıxışlar zamanı bildirilib ki, ölkəmizdə uşaqların hərtərəfli inkişafı və keyfiyyətli təhsil almaları üçün hər cür şərait yaradılıb. Onların milli-mənəvi dəyərlər və Azərbaycançılıq ruhunda tərbiyə edilməsinin, vətənpərvər gənclər kimi formalaşmalarının əhəmiyyəti vurğulanıb.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Çıxışlarda vurğulanıb ki, xalqımız həmişə Vətəninə,



torpağına bağlı qəhrəmanlar yetişdirib. 44 günlük Vətən müharibəsində əldə olunan qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu əvəzsizdir. O da qeyd edilib ki, Prezident İlham Əliyevin Şuşa, Ağdam şəhərləri azad olunduqdan sonra məscidləri ziyarət etməsi, Şuşada yeni məscidin təməlini qoyması ölkə rəhbərliyinin mənəvi və dini dəyərlərə verdiyi yüksək qiymətin təzahürüdür. Natiqlər bildiriblər ki, Ermənistan 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində vandalizm aktı törədib, bütün maddi, mədəni, tarixi və dini abidələri məhv ediblər. Azərbaycan dövləti Ermənistanın mədəni-tarixi irsimizə, dini abidələrimizə vurduğu ziyanın dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli tədbirlər həyata keçirir.

Tədbirlərdə həmçinin narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından da bəhs olunub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI COVID-19-LA QLOBAL MÜBARİZƏ ÜÇÜN YENİ BÜDCƏ TƏLƏB EDİR




Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ koronavirusla (COVID-19) qlobal mübarizədə lazımi avadanlıqların və dərman preparatlarının ehtiyacı olan ölkələrə çatdırılması üçün 23,4 milyard dollarlıq yeni büdcə tələb edib.

ÜST-ün baş direktoru Tedros Adhanom Gebreyesus ACT-Accelerator (COVID-19-un diaqnostikası, müalicəsi və vaksinlərə bərabər şəkildə əlçatanlılıq, vaksinlərin hazırlanması və istehsalı üzrə əməkdaşlıq proqramı) təşəbbüsünün yeni strategiyasını və büdcə planını açıqlayıb. O, son 2 ayda qlobal miqyasda COVID-19-a yoluxma və ölüm hallarının artdığını, bunun epidemiyanın hələ də davam etdiyinin göstəricisi olduğunu deyib.

Tedros Adhanom Gebreyesus bildirib ki, yüksək gəlirli ölkələrdə aşağı gəlirli dövlətlərlə müqayisədə əhali 80 dəfə çox testdən keçib və 30 dəfə çox peyvənd olunub. Əgər indiyədək tətbiq edilən 6,8 milyard doza peyvənd ədalətli şəkildə paylanılsa idi, dünyada hər ölkənin əhalisinin 40 faizi vaksinasiyadan keçərdi. Bu vaxtadək peyvəndlərə əlçatanlığı qeyri-kafi olduğu 144 ölkədə COVAX proqramı çərçivəsində 425 milyon doza vaksin paylanılıb.

"ACT-A üçün yeni büdcə planının bir hissəsi olaraq, qarşıdakı bir ildə COVID-19 ilə mübarizədə məqsədimizə çatmaq üçün 23,4 milyard dollarlıq büdcə tələb edirik. Oktyabrın 30-31-də Romada keçiriləcək G20 Liderlərinin Sammitində üzv dövlətləri ACT-A-ya tam dəstək verməyə və qlobal təhlükəsizliyi təmin etmək üçün iş planını hazırlamağa çağırıram", - deyə o qeyd edib.

## BAYDEN ƏRDOĞANLA GÖRÜŞƏCƏYİNƏ ÜMİD EDİR



ABŞ Prezidenti Cozef Bayden Böyük Britaniyada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcəyinə ümid edir.

"Report" xəbər verir ki, bunu ABŞ Prezidentinin Milli təhlükəsizlik məsələləri üzrə müşaviri Cek Sallivan deyib.

Onun sözlərinə görə, liderlərin noyabrın 1-2-də Qlazqoda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi Konfransı çərçivəsində görüşü gözlənilir.

Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 28-də jurnalistlərə verdiyi açıqlamada bildirib ki, ABŞ Prezidenti Baydenlə Qlazqoda gözlənilən görüşündə F-35 məsələsi gündəmdə olacaq.

## QARABAĞA AİD TARİXİ ƏSƏRLƏRİN VƏ ABİDƏLƏRİN BƏRPA EDİLMƏSİ MÜZAKİRƏ OLUNUR

"İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Tarix-Sənəd və Araşdırmalar Mərkəzinin əsas vəzifələrindən biri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə aid tarixi əsərlərin və abidələrin bərpa edilməsidir. Bura əlyazmalar, məscidlər, körpülər daxildir".

"Report"un məlumatına görə, bunu Şuşada səfərdə olan Mərkəzin rəhbəri Mahmut Kılıc deyib. Səfər Bakıda keçirilən Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti çərçivəsində təşkil edilib.

"Şuşa qalasına baxarkən adam kədərlənir. Bu torpaqları əsgərlər savaşaraq geri alıblar. Şəhidlərin ruhları şad olsun! Qazilərə isə Allahdan şəfa diləyirəm. Bu ərazilər nəhayət ki öz sahiblərinə geri qayıtdı", - deyə o, qeyd edib.

Oktyabrın 27-dən keçirilən Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti oktyabrın 29-da başa çatıb. İƏT-ə üzv ölkələrin rəsmi şəxslərinin və özəl sektor təmsilçilərinin iştirakı ilə baş tutmuş sammitin başlıca məqsədlərindən biri gənclərə startap layihələrini investorlara təqdim etmək fürsəti verməkdir.

CƏMİYYƏT və DİN
№ 10 (360) OKTYABR 2021-ci il

## TELEFONSUZ, RADİOSUZ VƏ TELEVİZORSUZ OTEL



Karib dənizinin sahillərində yerləşən "Jade Mountain Resort" oteli qonaqlarını heyrətləndirməyə davam edir.

Oteldə hər şey insanların rahatlığı və yaxşı istirahəti üçün düşünülüb.

Burada nəinki telefon, hətta radio və televizor da yoxdur. İnternetə giriş yalnız qəbul otağında mümkündür. Maraqlısı odur ki, otelin hər otağı yalnız üç divardan ibarətdir. Dördüncü divarın olmaması isə müsbət hal kimi dəyərləndirilir. Belə ki, açıq yerdən təbiətin gözəl mənzərəsini seyr etmək olar.

## DÜNYANIN ƏN QƏDİM ULDUZ XƏRİTƏSİ LONDONDA NÜMAYİŞ OLUNACAQ



Dünyanın ən qədim ulduz cədvəli olduğu düşünülən "Nebra" Londona gətirilib. Qədim disk Londondakı Britaniya Muzeyində nümayiş olunacaq.

Mütəxəssislər "Nebra" ulduz xəritəsinin təxminən 3600 il əvvəl hazırlandığını bildirirlər. Disk 1999-cu ildə Almaniyada tapılıb və XX əsrin ən əhəmiyyətli arxeoloji tapıntılarından biri hesab olunur. Disk 15 il ərzində ilk dəfə xaricə göndərilib.

Mavi və yaşıl rəngli, diametri təqribən 30 santimetr olan mis diskin fonunda Günəş, Ay, ulduzlar və digər səma rəmzləri qızılı rəngdə təsvir edilib.

Britaniya Muzeyi "Nebra"nı gələn il fevralın 17-dən iyulun 17-dək davam edəcək "The World of Stonehenge" adlanan sərgidə nümayiş etdirəcək.

## BOSNİYALI TƏQAÜDÇÜ FIRLANAN EV TİKİB



Bosniyalı təqaüdçü Voyin Kusiç pəncərədən təbiətin gözəlliyini seyr etmək üçün fırlanan ev tikib.

Evin 7 metrlik ox ətrafında fırlanmasını təmin etmək üçün buraya güclü elektrik mühərriki qoşulub.

Pəncərənin xaricindəki mənzərə hər saniyədə dəyişə bilər. Bütün bu proseslər altı ilə qədər gündəlik iş tələb edib. Bosniyalı yenilikçi evin zəlzələyə stasionar binalardan daha davamlı olduğunu söyləyir.

Evin quraşdırılması zamanı bir sıra çətinliklərə baxmayaraq, Voyin Kusiç evi hərəkət etdirməklə yanaşı, həm də onun fırlanma sürətini tənzimləyə bilib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Noyabr - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:48 | 07:10 | 12:24 | 15:57 | 17:53 | 18:54 |
| 2 | 05:49 | 07:11 | 12:24 | 15:56 | 17:52 | 18:53 |
| 3 | 05:50 | 07:12 | 12:24 | 15:54 | 17:50 | 18:52 |
| 4 | 05:51 | 07:13 | 12:24 | 15:53 | 17:49 | 18:51 |
| 5 | 05:52 | 07:14 | 12:24 | 15:52 | 17:48 | 18:50 |
| 6 | 05:53 | 07:15 | 12:24 | 15:51 | 17:47 | 18:49 |
| 7 | 05:54 | 07:17 | 12:24 | 15:50 | 17:46 | 18:48 |
| 8 | 05:55 | 07:18 | 12:24 | 15:49 | 17:45 | 18:47 |
| 9 | 05:56 | 07:19 | 12:24 | 15:48 | 17:44 | 18:47 |
| 10 | 05:57 | 07:20 | 12:24 | 15:47 | 17:43 | 18:46 |
| 11 | 05:58 | 07:21 | 12:24 | 15:46 | 17:42 | 18:45 |
| 12 | 05:59 | 07:22 | 12:24 | 15:45 | 17:41 | 18:44 |
| 13 | 06:00 | 07:24 | 12:25 | 15:45 | 17:41 | 18:43 |
| 14 | 06:01 | 07:25 | 12:25 | 15:44 | 17:40 | 18:43 |
| 15 | 06:02 | 07:26 | 12:25 | 15:43 | 17:39 | 18:42 |
| 16 | 06:03 | 07:27 | 12:25 | 15:42 | 17:38 | 18:41 |
| 17 | 06:04 | 07:28 | 12:25 | 15:41 | 17:37 | 18:41 |
| 18 | 06:05 | 07:29 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 19 | 06:06 | 07:31 | 12:26 | 15:40 | 17:36 | 18:40 |
| 20 | 06:07 | 07:32 | 12:26 | 15:39 | 17:35 | 18:39 |
| 21 | 06:08 | 07:33 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 22 | 06:09 | 07:34 | 12:26 | 15:38 | 17:34 | 18:38 |
| 23 | 06:10 | 07:35 | 12:27 | 15:38 | 17:34 | 18:38 |
| 24 | 06:11 | 07:36 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 25 | 06:12 | 07:37 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 26 | 06:13 | 07:38 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 27 | 06:14 | 07:39 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 28 | 06:15 | 07:41 | 12:28 | 15:35 | 17:31 | 18:36 |
| 29 | 06:16 | 07:42 | 12:29 | 15:35 | 17:31 | 18:36 |
| 30 | 06:17 | 07:43 | 12:29 | 15:35 | 17:31 | 18:35 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

* *Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## DARVİNİN MİKROSKOPU HƏRRACA ÇIXARILACAQ



İngilis təbiətşünası və səyyahı, çağdaş təkamül nəzəriyyəsinin təməlini qoyan Çarlz Darvinə məxsus mikroskop hərraca çıxarılacaq.

Londonda Kirsti hərrac evi tərəfindən keçirilən hərracda mikroskopun qiymətinin təxminən 480 min dollara satılacağı gözlənilir.

Mikroskop 1825-ci ildə hazırlanıb və Darvinin günümüzə qədər gəlib çatan 6 mikroskopundan biri olduğu bildirilib. Alim mikroskopu oğlu Leonarda verib və təxminən 200 ildir ki, mikroskop Darvin ailəsindədir.

Bioloqun bu mikroskopla zoofit adlanan orqanizmləri araşdırdığı bilinir.

### Yadigar söz

**Ştraus**

*Ancaq sağlam milli şüura malik olan xalq öz haqqını qoruya bilər.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində** yığılıb səhifələnmiş, **"Universal Poligraf" nəşriyyatında** ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894